HÜQUQİ, DEMOKRATİK DÖVLƏT QURAN, DOĞMA AZƏRBAYCANIMIZIN YÜKSƏLİŞİ NAMİNƏ!

# Babadağ

Həftəlik ictimai-siyasi və hüquqi qəzet №43 (049) 11-18 fevral 2002-ci il qiymıəti 1000 manat

## MTN RADİOAKTİV ÇIRAQLARI MÜSADİRƏ EDİB

*Müstəntiqin fikrincə, bu çıraqlar ölkəmizə əhalinin sağlamlığına zərər vurmaq məqsədilə gətirilib*



Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi əməliyyat keçirərək, insan orqanizminə mənfi təsir edən və müxtəlif xəstəliklərin yaranmasına səbəb olan radiasialı çıraqları müsadirə edib.

səh.2

## ATƏT-in monitorinqi təxirə salınıb



Fevralın 6-da ATƏT-in Azərbaycan Ermənistan cəbhəsinin təmas xəttində keçirəcəyi növbəti monitorinq texniki səbəblər üzündən təxirə salınıb. Monitorinqin yeni vaxtı hələlik müəyyənləşdirməyib. Bu barədə mə`lumat diplomatik mənbələrdən bəlli olub.

Xatırladaq ki, monitorinq Tərtər rayonu ərazisində olmalı idi.

## ABŞ-İRAN MÜNASİBƏTLƏRİ GÜN-GÜNDƏN KƏSKİNLƏŞMƏKDƏ DAVAM EDİR



*Bəs Azərbaycanın bu dövlətlərə yeni münasibəti necə olacaqdır? Amerika prezidenti Corc Buş bu yaxınlarda Konqresdə çıxışı zamanı terroru dəstəkləyən dövlətlər arasında İran dövlətinin adını xüsusilə qeyd etməsi və bu dövlətə silah satan Fransa, Rusiya və digər dövlətlərin bu hərəkətlərinin pislənməsi göstərir ki, ABŞ İrana münasibətdə daha kəskin mövqe nümayiş etdirir və daha çevik kəskin addım atmaq üçün zəmin yaradır. Bəs onda bu gün öz müstəqilliyini və dövlətçiliyini qorumaq üçün dönmədən mübarizə aparan Azərbaycan bu dövlətlərlə münasibətləri hansı müstəvidə inkişaf edir? İranla ABŞ-ın münasibətləri kəskinləşdiyi bu günkü vəziyyətdə Azərbaycanı nə gözləyir? Bütün bunlara açıqlama gətirmək üçün Azərbaycan, ABŞ və İran münasibətləri tarixinə nəzər salaq.*

səh.3

## Türkmənistanın Türkiyədəki səfiri Nurməhəmməd XanAmov istefa verdi

*Türkmənistan hakimiyyət dairələri üçün gözlənilməz olan bu addım Səfir tərəfindən mətbuat işçiləri ilə görüşündə belə açıqlandı.*

səh.4

## HƏYATIN GİRDABI. QADIN QUL BAZARI



*Oxucuların xahişini nəzərə alaraq "həyatın girdabı, qadın qul bazarı" məqaləsini bir daha qəzet səhifəsinə çıxarırıq və söz veririk gələn nömrələrimizdə də qadınlarımızın ağır həyat şəraiti və qadın qul bazarı haqqında yeni araşdırmalar olacaq.*

səh.12

## Sabunçu rayon Polis Rəisi işdən çıxarıldı

Daxili İşlər Naziri Ramil Usubov Sabunçu rayon Polis İdarəsinin rəisi Şirin Şirinovu vəzifəsindən azad edərək, sərəncama göndərib. Onun yerinə Əzizbəyov rayon Polis İdarəsinin sabiq rəisi Toğrul Rəhimov tə`yin edilib.

səh.3

## QUR`ANDA AZƏRBAYCAN HAQQINDA AYƏ VAR



Hələ bu gün da Cənubi Azərbaycanda yuxarıda qeyd olunan 12 şəhər adı 12 ay adı ilə yaşamaqdadır. 12 addan birinin Azər olması elə bu torpaqların tarixi toponim olmasını sübut edir. Üç adı birlikdə götürdükdə Azər + Dey + Aban = Azərbaycan. Xənzələ peyğəmbərin qanı ilə boyanmış Arass suyu tökülən dərya Xəzər dənizi adlanıb.

səh.12

## "Molla Nəsrəddin" erməni-müsəlman münasibətləri haqqında nə yazırdı?



"Bakı şəhərinin ülamə, sadat, əğniya və ə`yanı qərar qoymuşlar ki, bir sülh kamisiyası düzəltsinlər ki, müsəlmanlarla ermənilərin arasındakı ədavəti söndürməkdən ötrü, ağalarımızın hümmətilə bərpa olan bu sülh cəmiyyətinin bu gün rəsmi - güşadı olundu və cəmi kəsir də var idi. Hamı can və baş ilə razı oldu sülh eləməyə..."

"Molla Nəsrəddin", 2 iyun 1906 N9

səh.13

## ÇEÇENLƏR RUS ATOM SUALTI QAYIĞINI QAÇIRMAQ İSTƏYİB?



Rus əsgərləri bu barədə sənədlər tapıblar.

səh.3

## ANONS

1. Salyan və Neftçala rayonlarında bə`zi bələdiyyələr öz iş prinsiplərini bilmirlər və yaxud bilərəkdən özbaşınalığa yol verirlər. həmin bələdiyyələrin ərazisində yaşayan sakinlər onlardan niyə narazılıq edirlər.

2. Bir kəndin fəryadı. Görəsən İmişlidə fəryad edən hansı kənddir?

3. İmişlidə sün`i enerji problemini kimlər yaradır?

4. Qusar rayonunun bə`zi kəndlərində torpaq islahatları niyə gecikdirilir və ya mə`mur özbaşınalığı?

(Əvvəli 17-24 noyabr 2001-ci il tarixli sayımızda)



# AZƏRBAYCAN DÖVLƏTİNİN GƏLƏCƏK MÜQƏDDARATI AZƏRBAYCAN XALQININ ÖZ ƏLİNDƏ OLMALIDIR

Bütün bu hallar cəmiyyətdə düzgün əhval-ruhiyyənin formalaşmasına səbəb olur.İstiqlaliyyət əldə etdikdən sonra müstəqil, suveren ölkədə hüquqlarının tam tə`min olunduğu cəmiyyətdə, azad və firavan yaşayış təmin edən və buna tam hüquqları çatan insanlar konkret olaraq cəmiyyətdən bəhrələnə bilmədikləri üçün, əksinə belə insanların hüquqlarının addımbaşı pozulması, güzəranlarının, yaşayış səviyyəsinin son dərəcə ağırlaşması səbəbindən onlarda xoş gələcəyə ümüd azalır. Nastalji əhval-ruhiyyə uğrunda bir sözlə, azad, müstəqil cəmiyyətdən bəhrələnməmiş ondan iyrənmə, üz döndərmə kimi cəmiyyətin varlığı üçün təhlükəli bir hal təzahür edir (meydana çıxış). Bu isə, qeyd etdiyim kimi, cəmiyyət üçün, xüsusilə hələ tam güclənməmiş, möhkəmlənməmiş, qonşuluğunda təhlükəli düşməni olan və güclü, böyük imperiya dövlətinin maraq dairəsində olan gənc dövlət üçün əlavə problemlərin yaranması deməkdir. Son vaxtlar ölkəmizin həyatındakı dəyişikliklər, sabitliyin pozulmasına edilən cəhdlər, bunun üçün etnik qruplardan, milli azlıqlardan, cəmiyyətdən narazı adamlardan hətta cinayətkar ünsürlərdən istifadəyə əl atılması təkzib olunmaz faktdır. Bir tərəfdən Qafqazda, əlləxsus Azərbaycanda təsiri heçə enən lakin bununla heç vəhclə razılaşmaq istəməyən Rusiya, digər tərəfdən Quzey Azərbaycanda həmişə maraqları olan İran, üçüncü tərəfdən, islam bayrağının bütün keçmiş islami məkanda ucaldılmasına can atan Məkkə, dördüncü tərəfdən, Azərbaycanı öz tə`sir dairəsinə salmaq istəyən Amerika və Avropa. Bura, həmişə bizə kömək olmuş, dar məqamda qardaş əlini uzatmış qardaş Türkiyənin də maraqlarını əlavə etsək mənzərə aydın olar. Sözsüz yuxarıda göstərilən və adları çəkilməyən (məsələn, Azərbaycanla geniş iqtisadi və digər əlaqələr quran Çin, Yaponiya və saira) digər superdövlətlər burada tə`sirlərini gücləndirmək məqsədilə məmləkətimizin hərtərəfli öyrənilməsi işini aparırlar, daxili qüvvələrdən istifadə etməyə səy göstərirlər.

Maraqlı sual doğur. Bəs necə yaşamalı, bundan sonrakı gələcək dövlət həyatımızı necə qurmalı.

Cəmiyyətimizdə yaşanmış bə`zi nihilist, mənfi psixologiyanı nəzərə alaraq, öz siyasi baxışlarımı bütün halların təhlilindən sonraya saxlayaram. Hələlik isə bu fikrə düşən soydaşlarımıza xitabən sual edirəm. Bəlkə böyük mübarizələr, çətinliklər, itkilər bahasına əldə etdiyimiz müstəqil dövlətçiliyimizin üstündən xətt çəkək?

Elə isə, bəlkə uzun müddət müstəmləkəsi olduğumuz, milli hüquqlarımızın tapdalandığı Rusiyaya tərəf qayıdaq, yenidən boynumuzu rus boyunduruğuna salaq, bizə çörək, minimum sosial təminat və işğal altında olan torpaqlarımızın qaytarılmasında kömək olmaq istəyini bildirən Rusiyanımı?

Gəlin sadəlöv olmayaq, palçığa bir dəfə batmaq olar.Tariximizin 2 son əsrinə, Rusiya-Sovet dövrünə nəzər salaq. İlk əvvəl torpaqlarımız işğal olunur və ya sovet dərsliklərində göstərildiyi kimi irqi zülmündən qurtulmaq üçün digər Qafqaz xalqları kimi Azərbaycan xalqları da Rusiyaya üz tuturlar, Rusiyadan kömək umurlar. Nəticədə tarixi torpaqlarımızdan minlərcə soydaşımız, türk əsilli azərbaycanlılar (qarabağlı və s. tayfalar) məcburi köçürülür, deportasiya olunur. 1813 və 1828-ci illərdə Rus və Fransada Azərbaycan torpaqlarının bölünməsi rəsmiləşdirilir, Şimali Azərbaycan Rusiyaya ilhaq edilir.

Rusiyanın tərkibinə daxil edilmiş torpaqlarımızda ermənilər, kürdlər məskunlaşdırılır. Erməni kartı ortaya atılır, gələcək, yə`ni sonrakı bəlalarımız üçün zəmin qurulur, torpaqlarımızda təkcə özümüzə deyil, bütün Türk dünyasına qarşı, şübhəsiz ilk öncə xüsusilə dünya türk aləminin dayağı olan Osmanlı Türkiyəsinə qarşı terrorçu erməni silahı işlənib hazırlanır və Rus imperiyası tərəfindən hər vəchlə dəstəklənir.

*(Ardı gələn sayımızda)*

## Rusiya İranla hərbi əməkdaşlığı dayandırmayacaq

*Bunu Sergey İvanov bildirib.*

"Rusiya İranla hərbi-texniki əməkdaşlığı dayandırmaq niyyətində deyil". Bu haqda Romada keçirilən mətbuat konfransında RF müdafiə naziri Sergey İvanov bildirib.

"Rusiya İrana adi silah və hərbi texnika göndərir. Bunlar zirehli transportyor və məhdud radiuslu hava hücumundan müdafiə vasitələridir. Bu, adi kommersiyadır və biz onu dayandırmayacağıq" - deyə nazir vurğulayıb.

## MTN RADİOAKTİV ÇIRAQLARI MÜSADİRƏ EDİB

*Müstəntiqin fikrincə, bu çıraqlar ölkəmizə əhalinin sağlamlığına zərər vurmaq məqsədilə gətirilib*

Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi əməliyyat keçirərək, insan orqanizminə mənfi təsir edən və müxtəlif xəstəliklərin yaranmasına səbəb olan radiasiyalı çıraqları müsadirə edib. Bu barədə ANS-in verdiyi məlumata görə, çıraqlar ölkəmizə 1998-ci ildə İrandan keçirilib. 1800 ədəd çırağın 96-sı artıq başqa şəxslərə verilib. MTN çıraqların harada olması barədə məlumata malik deyil. Bununla belə, həmin çıraqların axtarılması istiqamətində iş gedir. Nazirliyin mühüm işlər üzrə müstəntiqi Novruz Kərimov telekanala verdiyi müsahibəsində bildirib ki, çıraqlar Hindistanda istehsal olunub. Maraqlıdır ki, mal ölkəmizə gətirilərkən gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmayıb.



Müstəntiq faktla bağlı heç kimin saxlanılmadığını söyləsə də, mal sahibinin şəxsiyyəti məlum olmayan İran vətandaşı olduğunu istisna etməyib. N.Kərimovun fikrincə, bu çıraqlar ölkəmizə düşünülmüş şəkildə, əhalinin sağlamlığına zərər vurmaq məqsədilə gətirilib. Çıraqların şüa verən hissəsi fitillidir. Adi halda 60 mikrorentgen şüa yayan fitillər işlək vəziyyətdə 100 mikrorentgenədək şüa yaya bilir. Bu isə insan orqanizmi üçün təhlükəlidir. Radioaktiv fitillər məhv edilmək üçün Bakı şəhər İcra Hakimiyyətinin İzotop Xüsusi İdarəsinə verilib.

## FƏRHAD ƏLİYEV QİYMƏTLƏR ÜZRƏ ŞURANIN SƏDRİ OLDU

Nazirlər kabineti ötən cümə " Azərbaycan Respublikasında *tarif (qiymət) şurasının yaradılması haqqında*" qərar qəbul edib. Şura aparıcı dövlət *qurumlarının nü*mayəndələri daxil olmaqla 14 nəfərdən ibarət olacaq. Şura daxili istehsalın inkişafının stimullaşdırılması, daxili bazarda yerli malların rəqabət qabliyyətinin artırılması üçün gömrük rüsumlarının tətbiqində çevik mexanizmin yaradılması, iqtisadi inkişafın tələblərinə uyğun olaraq tarif və qiymətlərin dövlət tənzimlənməsinin təmin edilməsi məqsədi ilə yaradılıb. Şura hər il hökumət qarşısında hesabatla çıxış edəcək. İqtisad İnkişaf Naziri Fərhad Əliyev şuranın sədri təyin edilib.

## Banklara bir-birinin səhmini almaq yasaqlandı

Azərbaycan Milli Bankının qərarına əsasən, ölkənin səhmdar- kommersiya banklarının nizamnamə kapitalının strukturunda başqa bankların səhmlərinin olması qadağan edilib. Bu barədə "Turan"a məlumatlı mənbələrdən bəlli olub.

## Don Juan və yaxud Oruc Bayatlı

### Bayron və Don Juan

XVI əsrin ortalarında İran hökuməti firəng dövlətlərinə elçi-nümayəndə he`yəti göndərir. Farslarla türklərin çoxdankı düşmənçiliyini nəzərə alaraq onlar daha yaxın yol olan Aralıq dənizi vasitəsi ilə deyil, Azərbaycan ərazisindən, daha doğrusu Xəzər dənizi ilə getməyi qərara alır. Yolüstü Bakıda iki gün qalan nümayəndə he`yəti firəng monarxları üçün çəkidə yüngül, qiymətdə ağır hədiyyələr aparırdılar. Rus çarı ilə danışıqlardan sonra gəmi ilə Britaniya adalarına gəlmişlər. Britaniyadakı danışıq və sazişlərdən sonra onlar İspaniyaya yola düşmüşlər.İspaniyada danışıqlardan sonra nümayəndə heyətinin tərkibindən iki nəfər burada qalmağı qərara alırlar.Onlardan biri fars, digəri isə Oruc Bayatlı adlı Oğuz tayfalarının Bayat boyundan olan bir azərbaycanlı olur. Xatırladım ki, Dədə Qorqud və Məhəmməd Fizuli kimi ulularımız məhz bu boydan olmuşlar.

Görəsən, onların bu xristian ölkəsində xoşlarına gələn nə idi? Əlbəttə ki, o dövrdə çadrasız, açıq-saçıq geyinmiş, təkcə İspaniyanın deyil, bütün dünyanın kişilərinin ürəyini fəth etmiş qadınlar bu ölkədə onları müsəlman ölkələrində rast gəlinməyən qadınların kişilərlə birgə məclislərdə yeyib-içmələri, deyib-gülmələri, rəqs etmələri saxlamışdı. Burada yaşamaq arzusunda olan bu iki "qəhrəman" müvafiq xahişlə İpaniya kralına müraciət edirlər. Kral razı olur və hər ikisinin kilsədə xristian dinini qəbul etmələri mərasimi təşkil edillr. Hətta kraliça onları öz köynəyİndən də keçirir. Bu o deməkdir ki, onlar kral ailəsinə yaxın adam olurlar. Həmyerlilərimizə kral Xuan adını verir. İspaniyada bütün kişilərə "don" deyərək müraciət edirlər. Beləliklə, həmyerlimiz çevrilir olur "Don Juan". İspaniyada onun nə vəzifə daşıdığı məlum deyil,ancaq o, burada qaimağının səbəbini heç vaxt unutmur. Bu Don Juan bir-birinin ardınca çoxlu eşq macəraları yaşayır. Beləliklə, günlər ötür. Qəhrəmanımız isə bir gün böyük qəbahət edir. O, şəhər merinin qızına aşiq olur. Qıza yazdığı eşqnamə necə olursa, merin əlinə düşür. Merə bu daimi oğnaşın sevdası xoş gəlmir. Ancaq kralın adamını səbəbsiz-günahsız məhv etmək olmazdı. O, merin qızının pəncərəsi altında öldürülür. Bu da macəranın sonu. Nakam sevdalı İspaniyada da dəfn edilir və məzarının ətrafına dəmir çəmbər çəkilir. Deyilənə görə onun məzarının kənarından keçən qadınların uzun tumanları həmişə bu çəmbərin dəmir barmaqlıqlarına ilişərmiş...

Deyirəm ey, Oruc bəy 200 il gözləyib sonra dünyaya gəlsəydi, burada, elə vətən torpağında - öz "Avropamızda" əsl müsəlman kimi ölərdi.

Don Juan öldü, bəs onu yaşadan, bütün dünyaya tanıdan kim oldu? Onu əksəriyyət tanıyır. Lord Corc Qordan Bayron. Bəli, dünya ədəbiyyatının iki ən yaraşıqlı kişi nümayəndələrindən biri olan Lord Bayron (onu da qeyd edim ki, digər ən yaraşıqlı kişi yazarı İmadəddin Nəsimi olub) dünya ölkələrini gəzmək istəyir. Dövrünün ən böyük liriki Bayronu hamı xüsusilə qadınlar çox sevirdi. İspaniyada artıq Don Juan yox idi. Kişinin bir adı qalmışdı, özü də necə ad. İspan gözəlləri Bayronu əhatə edib ona göz verib işıq vermirdilər, hələ üstəlik onu "Don Juan" da adlandırırdılar. Əvvəllər bu ada fikir verməyən Bayron sonradan bu adın nə mə`na daşıdığını araşdırib öyrənmiş və bütün dünyada məşhur olan "Don Juan" əsərini yazmışdır...

Hərənin öz taleyi, öz qismətl var. Bu taleyin yaşamasında təsadüflərin nə qədər mühüm və əhəmiyyətli rolu vardır. Hər təsadüfün də bir zərurət olduğu qaçılmazdır. Görəsən Oruc bəy Bayatlı İspaniyaya gedən nümayəndə heyətinin tərkibində olmasaydı və İspaniya torpağında qalmağı qərarlaşdırmasaydı, dahi ingilis yazıçısı Bayron "Don Juan"ı yazacaqdımı? Bəlkə də yox.

**2 SAYLI ORTA MƏKTƏB MƏ`ZUNLARININ BAKIDA YAŞAYAN HƏMİN MƏKTƏB MƏ`ZUNLARINA**

## Müraciəti

*Əziz həmyerlilərimiz!*

Son vaxtlar orta məktəb mə`zunlarının görüşü adət halını almışdır. Bu görüşlər zamanı yaddan çıxmayan məktəb illəri xatırlanır, xatirələr yada düşür. Biz mə`zunların bu günkü görüşündə təhsil aldığımız məktəblə bağlı nəcib bir təşəbbüs irəli sürülmüşdür.

Hamınıza bəllidir ki, rayonda mövcud iqtisadi vəziyyət hələlik təhsil sahəsinə də lazımi səviyyədə vəsait qoyulmasına imkan vermir. Bizim təhsil aldığımız doğma 2 saylı məktəbin də tə`mirə məktəb ləvazımatlarına və inventarlara ehtiyacı vardır. Gələcəyimiz olan uşaqların bu məktəbdə rahat təhsil almaları üçün biz mə`zunlar bu çətin vaxtda məktəbə dayaq durmalı və öz köməkliyimizi əsirgəməməliyik.

Bu məqsədlə də biz sizi bu nəcib təşəbbüsə qoşulmağa çağırırıq. İnanırıq ki,siz bu nəcib təşəbbüsə qoşularaq müstəqil Azərbaycanımızın layiqli övladlarının yetişdirilməsində böyük xidməti olacaq doğma 2 saylı məktəbə öz köməkliyinizi əsirgəməyəcəksiniz.

Hörmətlə.

2 saylı məktəbin mə`zunları adından:

V.Ələkbərov. M.Əhmədov. V.Əliyev. V.Hüseynov. Ə.Hüseynov.Ə.Səmədov.
E.Məhərrəmov. S.İsmayılov.E.İsmayılov. E.Mehdiyev. Ə.Mehdiyev.
Ə.Nəsirov. İ.Tağıyev. Ş.Məlikov. R.Bəşirov. Ə.Quliyev

Müraciət 24 iyun 2001-ci il tarixdə 2 saylı orta məktəbdə qəbul edilmişdir.

## QUBANIN "AY İŞIĞI" ƏDƏBİ MƏCLİSİ

Qubada fəaliyyət göstərən və bölgə yazılarını özündə birləşdirən "Ay işığı" ədəbi məclisi 1993-cü ildə yaradılmışdır. Məclis qədim Qubanın bu günkü ədəbi aləminə güzgü tutmaqla yanaşı, ədəbi keçmişinin də sirli-sehrli sənət ən`ənələrinə sadiq qalır, poetik sabahına yeni-yeni bədii töhfələrini verir. Milli tərkibi müxtəlif olan bir bölgədə dostluğa, qardaşlığa, başlıcası isə əsl ədəbiyyata xidmət etmək kimi müqəddəs bir vəzifəni yerinə yetirən, Dərbəndin "Narın-qala" ədəbi məclisiylə sıx əlaqələr quran, eyni adlı üç almanaxı işıq üzü görən bu məclisin fəaliyyəti Bakıda, eləcədə respublikamızın digər bölgələrində ziyalılar tərəfindən maraqla qarşılanmış və təqdir edilmişdir. B.Vahabzadə, Anar, S.Tahir, N.Xəzri, M.İsmayıl, M.Aslan, V.Arzumanlı, N.Şəmsizadə və bir çox ünlü ağsaqqal sənət adamları məclisə uğurlar diləmiş, yaxın və uzaq Dərbəndin, Təbrizin, Borçalının, Kərkükün poetik nəfəslərinə nəfəs tutmalarını salamlamışlar.

"Ay işığı" ədəbi məclisinin yeni şe`rlərini hörmətli qəzetinizə təqdim etməklə və poeziya həvəskarlarını nəzərinə çatdırmaqla digər bölgələrdə yazıb yaradan qələm dostlarımızı ürəkdən təbrik edirəm.

*Hörmətlə: Ramiz Qusarçaylı,*
*şair, Azərbaycan YB-nin üzvü,*
*"Ay işığı" Ədəbi Məclisinin sədri.*

***Azərbaycan "Mübariz Müharibə Veteranları Birliyi" nin Salyan Rayon şö`bəsinin 2-ci konfransının nümayəndələrinin***

***Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarına***

## Müraciəti

örmətli Prezident sizin yeritdiyiniz xarici və daxili siyasəti dəstəkləyirik. Bu gün Azərbaycanda hüquqi dünyəvi dövlət quruculuğunda sizin böyük zəhmətiniz vardır.Qarabağ probleminin həlli üçün yeritdiyiniz siyasəti bəyənirik. Torpaqlarımızın azad olunması üçün A.M.M.V.B-nin üzvləri hər an hazırdır.

Müharibə veteranları şəhid ailələrinə Qarabağ əlillərinə göstərdiyiniz qayğıkeşlikdən biz çox razıyıq. Yerli dövlət büdcəsinin təsdiqi ilə əlaqədar qanunvericiliyimizə müəyyən dəyişikliklər olunmuşdur. Biz bu islahatı vacib bilir, qəbul edirik. Həmişə sizin müdrikliyiniz dahi şəxsiyyət olmağınız, xalqımızın karına gəlib. Odur ki, sizdən xahiş edirik ki, imtiyazlı şəxslər üçün nəzərdə tutduğunuz güzəştlərin saxlanılmasına köməklik edəsiniz.

*A.M.M.V.B-nin Salyan rayon şö`bəsinin 2-ci Konfransının Nümayəndələri adından.*

D.Əliyeva adına qadın hüquqları müdafiə cəmiyyəti Xaçmaz rayon şö`bəsinin sədri, Quba, Xaçmaz bölgəsi üzrə İnsan hüquqları Resurs mərkəzinin icraçı direktoru Solmaz Mehdiyevaya

## Ərizə

Biz Qusar rayon Atlüxan kənd sakinləri mə`lumat üçün sizə bildiririk ki, prezidentin torpaq islahatı ilə əlaqədar verdiyi fərmana əsasən torpaq islahatı ilə əlaqədar verdiyi fərmana əsasən torpaq islahatı aparılmalı idi. Lakin hal-hazıra kimi Atlüxan kəndində islahat getməmişdir. Torpaqda yaşaya-yaşaya torpaqsız qalmışıq. İslahatla əlaqədar olaraq dəfələrlə rayon İH-nin başçısı, müavinləri və işçiləri ilə görüşmüşük. Lakin İH-nin işçiləri bizi təhqir etməklə, tutmaqla hədələyərək sizə sadvalist, vəhabist damğası vurarıq deyə hədələnmişik. Onu da bildirim ki, 1996-cıldən Qusar rayon İH-ə rəsmi şikayətlər etmişik. 2000-ci ildə Azərbaycan Respublikasının prezidenti H.Əliyev cənablarına, Baş Nazir A.Rasizadəyə, Milli Məclisin sədri M.Ələsgərova , Aqrar İslahat Komisiyyasının sədri A.Abbasova, Baş Prokuror Z.Qaralova, Ali Məhkəmənin sədri S.Həsənovaya, Dövlət Torpaq Komitəsinə və Qusar rayon İcra Başçısı İ.Əmirov cənablarına şikayət ərizəmizi göndərmişik, lakin hal-hazıra kimi heç bir cavab almamışıq.

Ona görə də biz Atlüxan kənd sakinləri aşağıdakı tələblərimizin yerinə yetirilməsini xahiş edirik.

1. Torpaq islahatının aparılması üçün Bakıdan komissiya tələb edirik.
2. Dövlət xəritəsinə əsasən Atlüxan kəndinə məxsus olan torpaq müəyyən edilsin.
3. Dövlət xəritəsinə əsasən torpaq payı düşən vətəndaşlara püşk atma yolu ilə torpaqlar paylansın.

Xahiş edirik bütün bunları həyata keçirmək üçün Respublika nümayəndəliyindən mütəxəssislər iştirak etsin.

Hörmətli Solmaz xanım 23 avqust 2001-ci il tarixdə sizin qəbulunuza torpaq islahatı ilə əlaqədar olaraq Atlüxan kənd camaatından ağsaqqallar Bakı şəhərinə yola düşmək üçün yığıncaq keçirmişdir. Nümayəndələr həmin yığıncaqda seçilmişdir. Lakin həmin gün rayon İH-nin nümayəndələri xəbər tutaraq, polislə birlikdə kəndə gələrək camaata hədə-qorxu gəlmiş tutmaqla hədələmiş, "kim Bakı şəhərinə getsə biz onu sadvalist, vəhabist damğası vurarıq tutacağıq" - deyə hədələmişdir. Ərizəmizdə göstəririk ki, biz Atlüxan kənd camaatı sadə kənd adamlarıyıq. Biz nə sadvalist, nə də vəhabistik. Bu haqda heç bir anlayışımız yoxdur. Rayon İH süni gərginlik yaradır, üz-üzə qoyur. Onun belə qanunsuz hərəkətlər etməyə nə marağı var?

Biz qanun çərçivəsində torpaq islahatının aparılmasını istəyirik. Hüquqlarımız qorunmazsa başqa tədbirlərə əl atmaq məcburiyyətində qalacağıq. Biz dövlət orqanlarından Konstitusion hüquqlarımızın qorunmasını xahiş edirik.

Qusar rayonunda İH sadə adamları separatçılarla səhv salır. Xahiş edirik bizim hüquqlarımızın qorunmasını nəzərə alasınız.

20 nəfər Atlüxan kənd sakini (imzalarla təstiq etmişlər)

## Əliq kəndinin təəssüratlarından



Müəllimlik sənətinə yiyələnmək çox yaxşı peşədir. Çünki, insanı həyata hazırlayan, peşə sahibi edən, çörək yiyəsi edən müəllimdir.Həyatda hər nəyə nail olmuşuqsa,müəllimlərin sayəsində nail olmuşuq. Həkimi-həkim edən, alimi-alim edən də müəllimdir. Mənim müəllim peşəsinə xüsusi hörmətim var. Elə bu üzdən də mənim bu səfərki müsahibim Quba rayonunun Əliq kənd orta məktəbinin direktoru, əməkdar müəllim Bəkmirzə Paşayevdir.

Paşayev Bəkmirzə 1952- ci il sentyabrın 3-də Qubanın Əliq kəndində anadan oiub. O, 1969-74-cü illərdə Azərbaycan Pedaqoji İnstitutunda təh sil alıb. İlk əmək fəaliyyətinə elə rayondan başlayıb. Hal-hazırda Əliq kəndində orta məktəbdə drektor vəzifəsində çalışır.

Mən məktəbə daxil olanda ilk növbədə diqqətimi təmizlik cəlb etdi. Məktəblilərin əynindəki məktəbli forması, onların davranışları məni çox heyran etdi. Bunlar hamısı Bəkmirzə müəllimin tələbkarlığından irəli gəlir. Onun məktəbində şagirdlər çox savadlı və tərbiyəlidirlər. Onu da qeyd edim ki, məktəbin 300 nəfər şagirdi var. Bəkmirzə müəllimin yetirmələri ali məktəblərdə təhsil aiıb və alırlar. Onların içərisində alim, müəllim, mühəndis, həkim və s. kimi görkəmli ziyalı şəxslər də vardır. Məktəbin tə`mirində, onun yaraşıqlı görünməsində elə onun yetirmələrinin də böyük rolu var. Onun keçmiş mə`zunlarından biri Bakı Azərpoçtun Rə`isi məktəbin tə`miri üçün sponsorluq etmişdir. Bəkmirzə müəllimin məktəbində əlil, şəhid, kimsəsiz ailələrin uşaqları da təhsil alırlar. O, bunların hamısına yardım edir. Məktəbin şagirdləri də onun zəhmətini yerə vurmur.

Məktəbi ə`la qiymətlərlə oxuyurlar. Onlar özləri də vətənlərinə layiq övlad olmaq istəyirlər. Bəkmirzə müəliim və şagirdləri də bu arzulara nail olacaqlar. Mən bir daha Quba rayonunun Əliq kənd məktəbinin müəllimlərindən biri ilə də həmsöhbat oldum.



Əlixanov Hacıqulu 1941-ci ildə dekabrın 29-da anadan olub. O,1961-ci ildə Ordu sıralarına çağırılıb. Xidmətdən qayıtdıqdan sonra o, kənddə əmək fəaliyyətinə başlayıb. 1966-cı ildə Dmitrov adına kolxozda fəhlə, mühasib, kitabxanaçı və s. kimi vəzifələrdə işləmişdir. Sonra 1968-ci ildə M.Ə.Sabir adına Pedaqoji texnikumda, M.F.Axundov adına İnistitutda rus dili fakültəsində təhsilini davam etdirmişdir. Hal-hazırda Əliq kəndində rus dili və ədəbiyyatından dərs deyir. Onun dərs dediyi şagirdlər çox savadlı və ağıllıdırlar. Eyni zamanda Hacıqulu müəllim xeyirxah işlər ilə məşğuldur. Kəndin problemləri onu çox narahat edir. Buna misal olaraq deyə bilərəm ki, onun çakdirdiyi yol - Qubadan Əlik kəndinə gedən yoldur. Bu yol çox bərbad vəziyyətdə idi. Kəndə heç bir maşın gələ bilmirdi. O, hətta sovet illərində bu yol barəsində çox yerlərə öz şikayətini bildirmişdi. Keçmiş Mərkəzi Komitəyə kimi şikayətlər etmişdir. Hacıqulu müəllim buna görə bir çox təsirlərə mə`ruz qalmışdır. Lakin buna baxmayaraq o, çətinliklə arzusuna nail ola bilib. 1988-ci ildə indiki Milli Məclisin deputatı, Millət Vəkili Arif Rəhimzadənin köməkliyi ilə bu yolun çəkilişini təşkil edir. Yolun ilk xeyir-duasını o verir, Qubadan Əliq kəndinə gedən yolu onlar salırlar. Qudyalçayın sahilində yerləşən bu kəndi daşqından, tozluqdan təmizləyib. O, öz xeyirxah işi ilə kənd əhalisinin gözündə yüksəlir. Bütün kəndin əhalisi ona alqış diləyir. Yol əsrlərdən - əsrlərə, nəsillərdən - nəsillərə keçir.

Hacıqulu müəllim Allah sizə bu yolda uğurlar diləsin. Sizə uzun ömür, uğurlar arzulayırıq.

*Xankişiyeva Elmira.*

# OD TUTUB ALIŞAN MƏZAR



*Alqış vətən torpağını candan əziz bilənlərə. Alqış olsun vətən üçün döyüşlərdə ölənlərə.*

İnanmaq olmur ki, bir daha mən onu görməyəcəyəm. Bunu fikirləşəndə qəlbim sıxılır, dəli olmaq həddinə çatıram. Mən onun üçün kim olmuşam? Dostmu, qaraşmı, yoldaşmı? Kim bilir, bəlkə də bunların hamısını əvəz etmişəm. Əlbəttə; kişilər çox vaxt öz hisslərini açıq biruzə vermək istəmirlər. Baxmayaraq ki, onunla ildə bir dəfə görüşürdük. Hərdən bir məktublaşırdıq. Amma onunla hər görüş mənə doğma, əziz idi.1993-cü ildə onu cəbhəyə yola salanda belə, mən özüm də onunla sonuncu görüşüm olacağını ağlıma belə gətirmirdim.

Qoy onun kişi kimi hərəkəti hamıya örnək nümunə olsun. O, doğulduğu torpağı qorumaq üçün fikirləşmədən ön cəbhəyə getdi. Tamara bu dərd bizim dərdimizir. Bu dərdi məzara gedənə kimi birlikdə çəkməliyik. Cəmaləddini isə heç vaxt unutmayacağıq. O, ölmədi, sadəcə olaraq bizdən əbədi ayrıldı.

Ağayev Cəmaləddin Hilal oğlu 1951-ci ildə Salyan şəhərində anadan olub. Salyan şəhər 1 saylı orta məktəbi 1968-ci ildə bitirib. Ukraynanın Xarkov Şəhərində 2 il harbi xidmətdə olub. Özüdə artileriya hissəsində. Xidmət etdiyi zaman komandarlərinə harbi təhsil almaq haqqında raport yazdı. İmtahanları müvəffəqiyyətlə verdi. Ukraynanın Sumi şəhərində yerləşən iki dəfə Qırmızı Bayraqordenli M.V.Frunze adına Ali Hərbi Mühəndislər Akademiyasına daxil oldu. 1973-cü ildə həmin Akademiyanı başa vurdu. Hümunəvi hərbi zabit kimi Almaniyanın Qalle şəhərinə göndərildi. Beş il Almaniyada zabit kimi fəaliyyət göstərdi. Qüsursuz xidmətlərinə görə medalla təltif olundu. Yenidən Ukraynaya çağrıldı. Bu dəfə Turuskavest şəhərində havadan müdafiə hissəsində xidmətini davam etdirdi. Svetlana adlı bir qızla ailə qurdu. Camal və Hataşa adlı övladları dünyaya gəldi. Cəmaləddin inadkar, sözündən dönməyən, oğul idi. Ən çətin yerlərə getməyə can atırdı. Elə bil ölümü axtarırdı, ölümlə mübarizə aparmaq istəyirdi. Əfqanstanda müharibə başlayanda Cəmaləddin də ora getdi. 1978-ci ildə od-alov içərisinə düşdü. Bir il ərzində 135 dəfə hava hücumunda iştirak etdi.

Sonuncu hava hücumunda düşmən döyüşçü yoldaşlarının hamısını gülləden keçirtdi.Camalədin təsadüf nəticasində meyidlərin arasında sağ qaldı. Və bir günün içərisində saçları ağardı. O,yenidən Ukraynaya çağrıldı. Bu dəfə Ovruc şəhərində xidmətini davam etdirdi. Və bir neçə ildən sonra 1986-cı ildə Çernobıl Atom Elektirik Stansiyasında qəza baş verdi. Çernobıl qəzasının aradan qaldırılmasında əsl fədakarlıq göstərdi. Altı il orada olmağı hər adam, hər kişi bacarmazdı. Amma Cəmaləddin hər çətinliyə dözdü, sinə gərdi.

Doğma Vətənin ən ağır günlərində Cəmaləddin ana torpağının harayına özünü yetirdi.1993-cü ildə doğma yurdu Salyana qayıtdı. Bir neçə aydan sonra cəbhəyə yola düşdü. Mühəndis, kapitan Cəmaləddin Ağayev torpaqlarımızın müdafiəsində ayq-sayıq dayandı. Ağdam yaşayış məntəqələrinin düşmən tapdağından təmizlənməsində bir zabit kimi əsl qəhrəmanlıq göstərdi.

25 aprel 1994.Milli Ordumuzun döyüşçüləri və bir neçə texnika düşmən mühasirəsində idi.Onları mühasirədən çıxarmaq Cəmaləddinə e`tibar edildi. O vaxt ,Baş Qərvənd istiqamətində başıpozuqluq var idi.Döyüşçülərimizin, düşmənin hansı istiqamətdə mövqe tutmaları mə`lum deyildi. Güllələr hər tərəfdən yağış kimi yağırdı. Buna baxmayaraq Cəmaləddin 3 nəfər döyüşçü götürüb Baş Qərvənd istiqamətində maşınla yola düşdü. Xeyli yol getmişdilər. Kəndin içərisindəki qamışlığa yaxınlaşdı. Hiyləgər düşmən gizləndikləri yerdən maşını güclü atəşə tutdu, Cəmaləddingil qapıları açıb, ehtiyatla aşağı düşdülər. Sonra o pulemyotu götürüb döyüşçü yoldaşlarına:"Kömək ardınca gedin, mən sizi müdafiə edəcəyəm" deyib Cəmaləddin qamışlıqda gizlənən erməni quldurları ilə təkbaşına döyüşə girdi. Cəmaləddinin silahdaşlarından biri şəhid oldu, digəri isə ağır yaralandı.

O biri yoldaşı özünü Ordumuzun əsgərlərinə çatdıra bildi. Cəmaləddin isə hələ döyüşürdü. Bir neçə erməni dığasını da gəbərtmişdi. Ermənilər ondan yanıqlı idilər. Cəmaləddin əllərinə keçsə idi dərhal parça-parça edərdilər. Pulemyotun patronu qurtardı. Silahsız, patronsuz qaldı Cəmaləddin. Özünə çıxış yolu axtarırdı. Elə bu vaxt düşmənin snayperdən atdığı güllə ürəyinə dəydi. Döyünən qəlbini 44 yaşında susdurdu. Çox çəkmədi ki, ermənilər Cəmaləddinin meyidinə yaxınlaşdılar.Ayaqları ilə onun meyidini o tərəf, bu tərəfə itələyərək diri olub- olmadığını yoxladılar. Bütöv bir güllə darağını Cəmaləddinin ürəyinə boşaltdılar.Sonra maşını öz maşınlarına qoşaraq şəhid döyüşçümüzlə , yaralı əsgəri maşına atdılar.Cəmaləddinin meyidini götürməyə imkan tapa bilmədilər. Çünki ordumuzun əsgərləri artıq düşmənləri haqlamışdılar. Ermənilər dərhal aradan çıxdılar. Doqquz gün Baş Qərvənd kəndi uğrunda ölüm-dirim savaşı getdi. Əldən-ələ keçən kənd nəhayət düşməndən azad olundu. Cəmaləddinin meyidi götürüldü.Şəhid düşməsindən 2 gündən sonra Müdafiə Hazirliyinin Cəmaləddinin diviziya kamandiri olması haqda əmri gəldi. Heyf ki, Cəmaləddin o günü görə bilmədi. Cəmaləddin Ağayev Salyan Rayonunda Şəhidlər Xiyabanında uyuyur. Lakin ona, onun ruhuna qarşı hörmətsizlik davam edir. Vətənin belə mərd, igid oğlunun adının əbədiləşdirilməsi haqqında heç kim fikirləşmir.Görəsən nə vaxta kimi? Bacısı Tamaranın fəryadını isə heç kəs eşitmək istəmir.

*"Əlisakit Ağababaoğlu.*

# MƏNİ TƏNHA GÖRÜBLƏR

*Bəşər tarixində insan dünyanın əşrəfi hesab olunub. Xalq şairimiz S.Vurğun isə "soyuq məzara da zinətdir, insan!" - deyibdir.*

Lakin bə`zən insanların bədxah əməlləri, çirkin niyyətləri ilə qarşılaşanda insanı nə dünyanın əşrəfi sayır, nə də onu soyuq məzara zinət hesab edirsən. İnsanlarda olan məkr və hiylə, tamah hissi, paxıllıq, xəbislik və s. keyfiyyətləri üstələyir! heçə-puça döndərir. Süleyman peyğəmbərin məsəllərində belə deyilir: "Qəlbində məkr olanlara xor baxılar", və ya "Tamahkar dava yaradar, Rəbbə güvənən bolluğa çatar".

Həzrəti Məhəmməd Əleyhissalamın "101 hədis"ndə isə:

"Ən yoxsul adam tamahkar olan kimsədir" kəlamları tamahkarlığın insan övladı üçün ən böyük qəbahət olduğuna dəlalət edir.

İndiki ağır dövranda insanlarda tamah, acgözlük, başqalarının vardövlətinə, mal-mülkünə asanlıqla sahib olmaq hərisliyi artmaqdadır. Belə insanlar vəhşiləşib ən pis yollara əl atmaqla, nəyin bahasına olursa-olsun başqasının malına, mülkünə sahib olmağa can atırlar. Tanrı öz bəndələrini bələlərindən qorusun. Lakin bə`zən köməksiz, sahibsiz bəndəsini tanrı da qoruya bilmir. Tənhalıq özü onları bələlərinə düçar edir. Bələlərinə düçar olmuşlardan biri də Dəvəçi rayonunun Dəvəçi kənd sakini Məmmədova Elmira Şəmi qızıdır. Onun söylədikləri:

"Mən əvvəllər tək olmamışam. Atamın anamın yeganə övladı olmuşam. Atam Şəmi uzun müddət sistemdə işləyib. O anam Roza ilə evlənəndə birinci arvadı Saatxanım olub. Atamın ondan övlad olmadığından yaş yarımlığımda zorla anamdan ayrılıb analığıma verildim. Orta məktəbi bitirəndən sonra 1976-77-ci illərdə Dəvəçinin Quşçu kəndində 110 saylı texniki peşə məktəbini bitirmişəm. Bağbançılıq ixtisası almışam. İxtisasım üzrə heç yerdə iş tapmadığımdan 3 aylıq dərzilik üzrə şagird olmuşam. 1982 - 1994-cü ilədək dərzi işləmişəm.

1992-93-cü illərdə Qarabağda gedən müharibədə vuruşan cəbhəçilərə kömək məqsədi ilə pulsuz balış və döşək ağları tikib, 100 manat pul ilə cəbhəyə göndərmişəm. Hamı kimi məndə könlüm tutan allah bəndəsinə nişanlandım. 1980-cı ildə bibim Mina Ağayeva və onun dayısı arvadı Zeynəb Kərimovanın bədxahlığı ucbatından toyumda qalmaqal düşdü. Valideyinlər arasında baş verən narazılıqlara görə toyum dava-dalaşla sona yetdi. Ömürlük ailə səadətindən məhrum oldum. Atam dünyasını dəyişəndən sonra, (10 ildir rəhmətə gedib) əsil müsibətli, faciəli günlərim başladı. Məni tək görüb, müxtəlif təzyiqlərə mə`ruz qoymağa başladılar. Analığım Saatxanım həyətdə oğru görüb psixi xəstəliyə tutulub yataq xəstəsi olandan sonra tamamilə təkləndim. Atam sağlığında Petrov adlı rusun arvadı Jeniyadan aldığı bu evləri mənim adıma keçirmişdi. Yaxın qonşum Hadir və arvadı Həcər Şahverdiyevlər evimi əlimdən almaq üçün hər cür məkr və hiyləyə əl atır, mənə şər və böhtanlar yağdırırlar. Bibim Mina və gəlininin dayısı arvadı Zeynəb də ona köməklik edir. Himayədarları, arxaları da Nadirin qohumu İcra hakimyyətində ictimai-siyasi şö`bənin işçisi Rafiq Ramazan oğludur. Dükandar Nadir onun qaynatasıdır. Nadirin oğlu Cavidin jurnalist olmasına baxmayaraq ata-anasının haqsız əməllərinə göz yumur. Onlar evimdə təmir işləri aparan milliyətcə rus Pavel Makarovu öyrədib məni döydürüblər. Pavel və Elşad Ağarzayev birlikdə Aydınla Bənövşənin qapısından 7 qaz, 3 ördək oğurlayıb gətirib mənim həyətimə qoyublar. Polislər buna görə həyətimdə düz 6 dəfə axtarış aparıblar. Müstəntiq İlqar Abdullayev və avtobazanın raf sürücüsü Teymurşah Müzəffərov 5kv m xalçamı atamın qoşalülə ov tüfəngini aparıblar. Müstəndiq İlqardan icra başçısına şikayət etdiyimə görə İlqar öz maşınıyla məni vurub əzəndən sonra, gətirib rayon mərkəzi xəstəxanasının həyətinə atıb. Onun tapşırığı ilə xəstəxananın gözətçisi və şoferi məni yarımcan olana qədər döydülər. Bu vəhşicəsinə döyülmədən sonra xəsarət aldım, beyin pozulması əmələ gəldi. Pisxoloq hakim Azad Orucov başqalarının təhriki ilə məni dəlixanaya qoyacağı ilə hədələyir. Şəhər sovetində yardım işlərinə baxan Əliheydər və Zeynəb Kərimovlar isə evimə yardım etmək adı ilə gəlib-getməklə qızıllarımı; 8 qr. zənbil sırğamı 15 qr. yaqut qaşlı qolbağımı, 8 qr. üzük oğurlayıb aparıblar.

Atamın 3 qol saatını da yoxa çıxarıblar.

Bütün bunlara görə rayon prarorluğuna şikayət eləmişəm. Deyiblər get polisə şikayət elə. Polis rəisi Mətləb Rzayev, müavini Musa Hüseynov məni qapıdan qovublar. Dəvəçi inzibati orqanlarının heç biri şikayətimə məhəl qoymadığı üçün 2 dəfə prezident aparatına teleqram vurmuşam. BMT-nə, QA cəmiyyətinə, respublika prakrorluğuna şikayət ərizəsi ilə müraciət etmiş, Amerika səfirliyinə qədər gedib çıxmışam. Heç kim harayıma hay vermir, imdadıma yetmir. Qurbanın olum, ümüdüm siz jurnalistlərə, mətbuatadır. Fiziki sağlamlığımı əlimdən alıblar. Cavanlığım gedir, artıq 51 yaşım var. Vaxtsız qocalıram. Mənə kömək edin. Qoymayın ata mülkünü əlimdən alıb, məni küçələrə, yaxud dəlixanaya atsınlar. Məndə insanam, yaşamaq istəyirəm. Söyülmədən, döyülmədən, təhqirə və təzyiqə mə`ruz qalmadan ömrümün qalan illərini rahat başa vurmaq istəyirəm."

Elmiranın yana-yana, göz yaşları içərisində dediyi son sözlərdən sonra V. hüqonun: "bütün insanların yaşamaq hüququ var: nökərin də, məhbusun da " sözlərini xatırladım.

Mən deyərdim ki, tənha bir şəxsin də. Bu anlarda hansı şairinsə yazdığı;

Meşələr soltanı, meşələr şahı
Aslanın özü də tənha qalmasın

düşüncələrimdə əks-səda verdi. Bir də aqillərimizin dediyi; "Bu dünyanın dözdüyünə, cəhənnəm də dözməz" kəlamlarını yada salıb düşündüm: " tənhalıq nə böyük fəlakətdir, Elmiranın dözdüklərinə heç cəhənnəm də dözməyəcək". Tanrı sənə zülm edənlərin bəlasını özü versin.

*XALİDƏ QARAÇAYLI.*

# Ataya məhəbbət- Ata məhəbbəti

Atamızdan qüvvətli, atamızdan ağıllı adam tanımazdıq. Elə bilirdik ki, dünyada atamın həll edə bilmədiyi müşkül iş yoxdur. Vaxt ötür, atalar qocalıb övladlarının müdrik məsləhətlərinə dözmürlər. Zaman keçir övladlar özləri yaşa dolub dünyaya gətirdikləri övladlarının ağsaqqalı olurlar və beləcə ömrün karvan yolu tükənmir. Lakin bir həqiqət əbədiyyət qanunu kimi daim yaşar. Bir ailənin başçısı, çoxlu övlad atası olsaq belə, yenə atalarımız haqqında iftixarla danışan övladlarıq!

Övladlarının saymazyana rəftarından gileyli danışan atalara qulaq asanda, onların daxili fəryadını eşidəndə necə? Belə hallarda soyuqqanlı olmaq çətindir.

Qeyrətkeş atalar öz məhəbbətlərini söza çevirməkdə xəsislik göstərirlər. Öz yanğılarını heç bir hədd gözləmədən övladına bəyan edən analara nisbətən atalar dözmlüdürlər,təmkinlidirlər.

Ata qəlbində qövr edən məhəbbət qövrü övlada qayğı hesabına zaman-zaman sönmür.

Çiçəyin yaxşılığı onun ətrindən bilindiyi kimi, övladına da ləyaqəti onu boya - başa çatdıranlara xidməti və hörməti ilə müəyyənləşir.

Heç kəs göydən düşməyib. Ötən əsrin ortalarında Fizulili Nəcəf kişini çox az adam tanıyırdı. İllər ötdü, sevimli oğul yaşa doldu. Parlaq zəkası ilə görkəmli ədib, böyük ictimai xadim, qorxmaz inqilabçı kimi tanınan oğlu Nərimanın hesabına bu sakit təbiətli, yoxsul güzaranlı kişinin adı indi dillərdə tez-tez çəkilir.Nariman Nəcəf oğlu Nərimanov!

30-cu illərdə bakılıların bir qismi hər səhər məktəbə tələsən bəstəboy, qıvrımsaç bir uşaqla maraqlananda professor Əbülfət Qarayevin oğlunu tanıyırdılar. Bu təbiidir. Oğul ata ilə tanınar! Lakin zaman keçdi, kiçik Qara böyüdü və öz musiqi zəkası ilə ümumdünya şöhrəti qazandı. İndi elm aləmində müəyyən "pay" qoyub dünyadan köç eləmiş professor Əbülfəz haqqında söhbət düşəndə, nabələd adamlara mərhum alimi müfəssəl tanıtmaq üçün mütləq zəmanəmizin böyük bəstəkarı Qara Qarayevin adına istinad etməli oluruq. Budur, böyük atalıq haqq-sayının müqabilində böyük övlad mükafatı! Bir vaxt övlad, şöhrətli ata ilə tanınardı. İndi vəfalı övladın şöhrəti ata ünvanı üçün şanlı bələdçiyə dönüb. Bu ibrətli fakt ataların ürəyinə qürur hissi aşılar!

Atasının əvəsiz qayğı və zəhmətini tədriclə yaddan çıxaran gənclər vicdanın hökmünü unudurlar. Vicdan isə insanın əməlləri üzərində sərt və ədalətli nəzarətçidir. İnsan vicdanın səsinə qulaq asmırsa, ürək ilə dil arasında körpü yoxdur. Saf ürəkli, saf diləkli övladları ilə fəxr edən atalar xoşbəxtdir!

Dağ əzəmətli, dünya qeyrətli cəsur və möhtərəm ataların vəfalı övladı olmaq şərəfdir!.

Azərbaycan gənclərinin sevimlisi, böyük Heydər məktəbinin layiqli davamçısı, millət vəkili, Azərbaycan Respublikasının Olimpiya Komitəsinin Prezidenti, ARDNŞ-nin vitse-prezidenti, YAP sədrinin birinci müavini İlham Əliyevə də belə şərəf nasib olmuşdur. Yalnız öz el-obasında tanınan Əlirza kişidən fərqli olaraq, Azərbaycanın xilaskarı Heydər Əliyev cənablarını bütün dünya siyasət aləmində yaxşı tanıyırlar, müdrik bir siyasətçi, dahi bir insan, kimi qəbul edirlər.Belə bir atanın övladı olmaq isə həm çox şərəfli, həm də çox məsuliyyətlidir. İlham Əliyev böyük fəaliyyətində təkcə atasının deyil, bütöv Azərbaycan xalqına layiqli övlad olacaq, nüfuzlu siyasətçi, gözəl diplomat, gənclərin yaxın dostu olduğu onun fəaliyyətində bir daha təsdiqlənir. Azərbaycan xalqı, Azərbaycan gəncliyi doğru olaraq İlham Əliyevdə Azərbaycanın xoş gələcəyini, ümüdlü sabahını görür.

*Yazdı:Abdullayeva Sevinc.*

# AZƏRBAYCAN TƏBİƏTİNƏ BƏNZƏYƏN ALİM



*Həmsöhbətim ATU-nun operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Loğman Abbas oğlu Məmmədovdur*

Ön söz. Xalq şairi Məmməd Araz onun haqqında yazıb: "Professor Loğman Məmmədov xarakteri, mə`nəviyyatı ilə Azərbaycan təbiətinə bənzəyir; xeyirxahlığı, səxavəti, insanpərvərliyi sərhədsizdir.Belə ziyalıların xalqın nüfuzunu qazanması təbiidir."

Məmmədov Loğman Abbas oğlu 1950-ci ildə Gürcüstanın Qaraçöp mahalında anadan olub. Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirib, elə orada operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasında baş labarant kimi işə başlayıb. Sonra 1974 - 1989-cu illərdə İ.M. Seçenov adına 1-ci Moskva Tibb Akademiyasında çalışıb, eksperimental cərrahlıq laboratoriyasının elmi işçisi və rəhbəri kimi fəaliyyət göstərib. 1978-ci ildə namizədlik, 1989-cu ildə isə doktorluq dissertasiyasını müdafiə edib. O,həm də Moskva İctimai Elmlər Universitetinin fəlsəfə fakültəsini və Moskva İctimai Patentşünaslıq İnistitutunu bitirib, Ümumittifaq Elmi-Tədqiqat Patent Ekspertizası İnstitutunun və Dövlət Farmakologiya Komitəsinin İctimai əsaslarla xüsusi səlahiyyətli eksperti kimi çalışıb, Moskvada Azərbaycan diasporunun təşkilatçılarından və aktiv üzvlərindən biri olub.

Professor Loğman Məmmədov yorulmaq bilmədən çalışan məhsuldar alimdir. O,bir kəşfin, 6 dərman preparatı və vəsaitinin, 140 elmi işin, o cümlədən 22 ixtiranın və 6 dərsliyin müəllifidir. "Dövlət ixtiraçısı" döş nişanı ilə təltif olunub, dəfələrlə diplom, medal, fəxri- fərman və pul mükafatına layiq görülüb. o, elmi əsərlərinin və ixtiralarının müəlliflik haqqını həmişəlik Ümumdünya Uşaq Fonduna köçürüb.

İstedadlı qələm sahibi Nəriman Əbdülrəhmanlının yazdığı Professor Loğman Məmmədov, "Tale kitabı" onun çətinliklərdən keçmiş, lakin sınmamış, əyilməmiş ömür yoluna yaxşı işıq tutur.

Professor Loğman Məmmədovdan siyasətə münasibətini soruşanda bildirdi ki, mən Azərbaycan xalqının oğluyam, xalqımıza edə biləcəyim xidmət mənim üçün ən böyük siyasətdir.

- Loğman müəllim, mən bayaqdan fikir verirəm, sizin kabinetinizdə yaxşı əl işləri var - heykəltəraşlıq nümunələri. Bu da göstərir ki, Loğman müəllimin gözəl bədii zövqü var. Bax bu hardan irəli gəlir, nəsildəmi bədii yaradıcılıqla məşğul olan var, xobbinizdimi?

- Təbii, insanda olan hər bir xüsusiyyət bu və ya digər dərəcədə onun nəsil-nəcabətiylə, yə`ni genetik xüsusiyyətilə əlaqəlidir. Amma hər genetik xüsusiyyət də elə həyatın gedişi boyu yerini tutmur, bə`zən gözəl bir genetik xüsusiyyətə malik olan nəsildən çox bir yararsız insan çıxır və ya əksinə.Yə`ni genetik xüsusiyyətdən əlavə insan işləməyi də bacarmalıdır. Bu işlərin yaranmasında, mən bunu dəfələrlə demişəm, bu bacarığı atamdan götürmüşəm. Atam fizika-riyaziyyat müəllimi olmasına baxmayaraq, həmişə boş vaxtlarında, xüsusən yay aylarında gözəl bənnalıq və dülgərlik eləyirdi, at arabası düzəldirdi. Mən həmişə soruşardım ki, niyə belə ucuz düzəldirsən, məsələn, başqa usta o vaxt evi 400-500 manata tikirdi, atam 200 manata. Deyirdi: - a bala, mənim məqsədim əsas pul qazanmaq deyil. Mən bir az istəyirəm sizin ümumi illik büdcənizə bir əlavə pul gətirim. Amma əsas məqsədim yetimlərə, kasıblara ev tikməkdir. Onun pulu çatmır 500 manat verməyə, ömrü boyu evsizmi qalmalıdır?!

Sonra Moskvaya getdim. Ümumən, bu əl işi ilə çox uşaqlıqdan məşğulam. Yadımda qalan əl işim, bir dəfə alüminiüm məftildən bir gözəl dördtəkərli araba düzəltdim, yekə pişiyimiz var idi, gətirdim bunu da qoşdum bura. Pişik elə rahat gəldi ki, arabanın qollarının arasına. Məftildən boyunduruq da düzəltmişdim, elə pişiyin boynunu boyunduruğa salıb bərkidəndə birdən pişik əlimdən çıxdı. Hürküb qaçdı, arxasınca da araba, girdi lobyalığa. Əmimgilin qapısında lobyalıq var idi, çiçəkləyən vaxtı idi. Onda çox kövrək olur axı. Onun yarısını biçdi tökdü, dağıtdı oraları. Nənəm çıxıb baxır, görür ki, lobya belə oynayır üstdən, sonra da böyrü üstə çökür sanki biçilmiş ot kimi. Çığırır ki, ay gədə, əstəğfrullah, əstəğfrullah! Demədim o pişiyi mən eləmişəm, arabanı mən düzəltmişəm. Yə`ni elə bu, əl işinin məhsulu olmaq dəcəllik də sayılsaydı, o vaxt, maraqlanırdım.



Sonra Moskvaya getdim, birinci əl işim at arabası oldu. Onu da, düzü, yaradıcılıq naminə düzəltmədim, yaman kasıblamışdım dedilər təzə bir salon açılıb, bax elə düzəltdim. Amma sonra dedim yox, bunu mənə nə də versələr satmaram. Elə o gündən gələcəkdə məhv ola biləcək ev, məişət, təsərrüfat aşyalarının modelini düzəltməklə məşğul oldum. Sonra beşik düzəltdim, cəhrə düzəltdim. Beşiyi rəmzi olaraq "Ana beşiyi" adlandırmışam, cəhrənin üstünə yazmışam "Hənəmin cəhrəsi". Əmimin hayat yoldaşı yaşlı idi, biz ona nənə deyirdik. Biz ümumən nənəmizi görməmişik. Gedirdim həmişə nənəmin yanında oturardum cəhrə əyirəndə. "A gədə, get burdan, - deyirdi, bu, arvad işidir, bax mənim yanımda çox oturarsan, arvad olarsan". Amma mən çox maraqlanardım, yanında oturardım. Və o yaddaşımla çertyojunu da özüm çəkdim cəhrənin, üstünə nənəmin xatirəsi üçün yazdım " Hənəmin cəhrəsi". Sonra yavaş-yavaş bu sənətin yönümü əl işindən, yə`ni incə dülgərlikdən deyək ya xarratlıqdan gəldi keçdi heykəltəraşlığa. Yə`ni mən həyatda hər yerdə gəzəndə elə bil nəsə itirmişəm oralarda, gözüm nəsə gəzir. Xüsusən də meşələrdə, çox əcaib ağaclar, mənə nəyi isə xatırladan ağacın bir hissəsini - ya budağınımı, ya kökünümü, nayiniisə götürürəm, müəyyən mövzu üzrə işləyirəm. Məsələn, bu əsərin adı "Türk dünyası"dır, görürsünüzmü, çoxşaxəli, geniş, amma sinəsində nə qədər yara var. Türk dünyası Qarabağ, Bosniya, Kipr, Çeçenstan... dağlıdır. Mən arzu edirəm ki, türk dünyası əvvəl-axır düzəlsin, özünün məşhurluğuna, möhtəşəmliyinə, məğrurluğuna qail bir aləm olsun.

Bə`zən kənddə olanda görürəm qapıya gətirib 3-4 əyri-üyrü ağac tullayıblar. Götürüb yandırıram. Birdən biri çığırır ki, ədə, niyə yandırırsan? Deyirəm nədir, ağacdır da. Deyir sən əyri-üyrü ağac yığırsan axı, mən də sənə gətirmişəm. Deyirəm yox mən əyri ağac yığmıram, özümün aləmimdə bir dünyam var. O dünyanın öz fəlsəfəsi var, ona uyğun gələn ağacı mən götürürəm. O fəlsəfənin hansısa bir elementini açan ağacı seçirəm. Və axır vaxtlarda çox qəribədir, mən onu düşünüb eləməmişəm, amma əsərləri axırda nəzərdən keçirdikdə görmüşəm ki, üstünlük təşkil edən əsərlər bizim faciələrimizlə bağlıdır, Qarabağımızla bağlıdır. "Xocalı harayı"dır, birinin adı " Ayrılıq"dır (Azərbaycamn cənubunun, şimalının ayrılmasını nəzərdə tuturam), birinin adı "Azərbaycanım"dır, axrıncının adı "Müasir Azərbaycan"dır, çox möhtəşəm bir əsərdir, hələ qurtarmamışam, 4 ildir üstündə işləyirəm.

Bə`zən sual verirlər ki, Loğman müəllim, nə təhər olur ki, bu boyda fəaliyyətlə məşğul ola bilirsiniz? Deyirəm ki, məni bölmək lazım deyil ki, müəllim Loğman, alim Loğman, həkim Loğman, heykəltəraş Loğman. Yox, mən bircə adamam, görünür, həyatımın tələbatından, əhvali-ruhiyyəmin dərəcəsindən, maddi imkanımdanmı, nədənmi asılı olaraq bə`zən kitab yazmaqla məşğul oluram, bə`zən kimsə acığımı tutduranda ağacın üstündə işləyirəm, dərs deyirəm, şahmat oynamağımdan da qalmıram.

- Loğman müəllim, yaxşı dediniz, insan o vaxt böyük, gözəl olur ki, o, bölünmür, vahid, tam şəkildə olur...

- Bir şeyi deyim bu barədə, "Xöşbəxtlik nədir?" sualına, bilirsiniz ki, cürbəcür cavablar var. Həyatda ən böyük xöşbəxtlik insanın həmişə özü olmalıdır.



Həm əl işlərinizdən görünür, həm başınızın üstdəki lövhədə yazmısınız: "Qarabağsız Azərbaycana Vətən deməyə haqqımız yoxdur". Yə`ni bütün bunlar bir alim vətənpərvərliyinin nümunəsidir. Mən bildiyimə Görə, Siz Moskvada uzun müddət işləyəndən sonra Qarabağa görə, Azərbaycanın üfüqlərini qara buludlar alanda özünüzün işinizi, gələcək karyeranızı, hər şeyi atıb gəlmisiniz ki, burda vətəndə lazımsınız. Siz alim vətənpərvərliyini, alim etikasını, alim insanlığını nədə görürsünüz?

- Təbii, bu gün başqa ölkələrdən Azərbaycana gələn hamı deyir ki, Vətən məni çəkdi gətirdi. Gedib xaricdə əli-ayağı heç nə tutmayan, işləyə bilməyib qovalanan və yaxud qohumunun biri böyük vəzifəyə duranda çəkib onu da böyük vəzifəyə gətirməyini də bu gün biçarə Vətənimizin boynuna yıxırlar. Ona görə o sözü deməyə artıq mən də çəkinirəm. Amma bircə faktı deyim. Əgər mən Moskvada işləməyimi Azərbaycanda işləməyimlə müqayisə eləsəm, elə bil ki, Moskvada "Mersedes" sürürdüm, Azərbaycanda isə qırıq "Zaparojets". Mən çünki Vətənə evdən-eşikdən ötrü gəlməmişəm, mən Vətənim üçün işləməyə gəlmişəm.

Təbii ki, hər bir insan Vətənini sevməlidir. Amma necə? Mən kəndə gedəndə yığılırlar, bu barədə söhbət edirik. Bir dəfə deyəndə ki, hər kəs sənətindən, yaşından asılı olmayaraq vətənpərvərlik borcunu yerinə yetirməlidir, zurnaçalan Ramiz dedi:

- Ay Loğman müəllim, mən qandım siz deyəni, amma mən zurnaçıyam, əlimdən heç nə gəlmir, mən nə edim, maddi tərəfə qalsa özüm dolana bilmirəm...

Dedim ay Ramiz, bax bizim kəndin böyründə ki bu balaca dağ var, Novruz bayramı xoruz banı vaxtı çıx o dağın başına, qara zurnanı çal, eli zurna səsi ilə oyat.

Dedi ay loğman müəllim, eləyərəm, amma özün camaatımızı bilirsən, deyəcəklər Ramizin başı xarab olub.

Dedim Ramiz baxma, sən bir il, iki il, üç il, dörd il, elə, beşinci il eləməyəndə hamı səhərə durub deyəcək ə, Ramiz niyə çalmadı görən? Toy olur, gətirib papağınızın altına pul qoymamış - çalmırsınız, hərdən e`lan eləyin ki, kasıbların xətrinə çalırıq. Bax budur vətənpərvərlik.

Hər bir alim beyninin məhsulunu həmişə dövlətinə, xalqına həsr etməlidir. Özü barədə düşünməməli, şəxsi mülkiyyətçiliyə varmamalıdır.

Bu gün Azərbaycanda çox dəhşətli bir tendensiya yaranıb: guya hamı hər şeyi bilir. Alimin vətənpərvərliyi birinci növbədə onun vicdanlılığı, halallığıdır. Alim səhv cümlə, yalan yazmamalıdır.

- Loğman müəllim, son zamanlar çoxları tez-tez təkrar edirlər ki, guya SSRİ tərkibində olduğumuz 70 il ərzində Azərbaycan geri qalıb. Sonra, əlifbanın dəyişməsi bizi zəngin bilik mənbələrindən ayrı salmırmı?

- Deyim ki, 700 min il yaşasaq da , biz 70 ildə çatdığımız zirvəyə çatan deyilik. Belə çıxır ki, latın əlifbasına keçməklə biz yaxın gələcəkdə bir 10 ildən sonra Azərbaycanın, həmçinin Rusiyanın kitabxanalarını balalarımızın üzünə bağlayırıq. Mənim bir təklifim var ki, kiril əlifbası da öyrədilsin, bütün orta ümumtəhsil məktəblərində, kolleclərdə və ali məktəblərdə rus dili xarici dil kimi keçilsin.

- Loğman müəllim, Azərbaycanda təhsil sisteminin mövcud durumuna münasibətiniz?

- Əvvəla sual qoyulmalıdır ki, təhsil sistemindən nə istəyirik. Təhsildən Azərbaycana lazım olacaq dərəcədə bu və ya digər ixtisas üzrə gözəl vətənpərvərlər yetişdirilməsini gözləyirik. Bu gün 30 Universitet açılıb, 30 tibb fakültəsi. Yaxşı , qurtaranlar harda işləyəcəklər? Azərbaycan 5-6 ildən sonra ali diplomlu işsizlər ölkəsinə çevriləcək. Mən özəl sektorun inkişafının, rəqabət sisteminin tərəfdarıyam. Amma ağıllı rəqabətin, düşmənçilik rəqabətinin yox. Mən dövlət müəssisələrində pullu təhsilin qəti əleyhinəyəm.

- Loğman müəllim, bu gün nə üzərində işləyirsiniz?

-Mənim üç əsas işim var. Əsərimin biri oğlum Abbasdır ki, Amerikada oxuyur. İkincisi dörd ildən bəri üstündə işlədiyimiz, gələcək tələbələrimiz üçün operativ cərrahlıq və topoqrafik anatomiya üzrə ensiklopedik xarakterli, rəngli illüstrasiyalı rəhbərliyin hazırlanmasıdır. Bu kitabın 2800 makina səhifəsi mətni və 1400 şəkli var. İnşallah, 6 ay gecə-gündüz işləsəm çatdıraram. İlk gündən epiqrafını da hazırladım: "Həyatda ən ali məqsədlərinə çatmaq üçün yalnız və yalnız təhsil və elmi yeganə üsul kimi seçmiş kəslərə ithaf olunur". Üçüncüsü - 4 ildir üzərində işlədiyim "Müasir Azərbaycan" adlı sənət əsərimdir, yəqin ki, birinci onu başa çatdırmaq mənə nəsib olacaq.

- Söhbətimizi necə yekunlaşdırmaq istərdiniz?

- Mən istərdim ki, Azərbaycan xalqının hamısı xoşbəxt olsun!

*Müsahibəni apardı: Şöhlət Abbas.*

# SALYAN PEŞƏ LİTSEYİNİN UĞURLARI

**Salyan Peşə Litseyinin direktoru Məmmədhəsən Səmədağa oğlu Fuzullayevlə ətraflı söhbət**

Məmmədhəsən müəllim, eşitdiyimə görə Salyan Peşə Litseyi 2001-ci ilin Azərbaycan Respublikası Təhsil Naziri Misir Mərdanov cənablarının qərarı ilə, ilin ən yaxşı peşə təhsili müəssisəsi adı uğrunda müsabiqəyə qoşulub. Xahiş edirəm bu barədə bizə ətraflı mə`lumat verəsiniz.

Respublika peşə məktəbləri arasında ən qocaman və özünn dəsti-xətti ilə seçilən təhsil ocaqlarından olan Salyan Peşə Litseyinin fəaliyyətinə nəzər salmamışdan öncə Salyan bölgəsi barədə, litseyin bu bölgədə yaradılmasının zəruriliyi barədə azacıq məlumatlı olmaq daha önəmlidir.

Belə ki, Salyon rayonu müstəqil Azərbaycanın ən qədim yaşayış məntəqələrindən biridi. Əvvəllər Salyan qəzası, Salyan quberniyası adlanan bu gözəl, füsunkar məmləkət respublikamızın Şirvan, Mil-Muğan və cənub bölgələrinin qovşağında yerləşir. Salyan rayonu yalnız flora və faunası ilə deyil, eyni zamanda özünün maarifpərvər ziyalıları, almiəri, ruhaniləri və işgüzar adamları ilə nəinki Azərbaycanda, eləcə də bütün dünyada məhşur olmuş və indi də məhşurdur. El arasında "mö`münlər evi" adlanan Salyan torpağı son iki yüz il ildə Azərbaycan türklərinin ictimai-siyasi fikir tarixinə neçə-neçə ülamalar, filoloqlar, alimlər, yazıçılar, musiqiçilər bəxş etmişdir. Bu torpağın ən böyük yetirmələrindən olan Əli bəy Hüseyinzadəni, Qafqaz Şeyxülislamı Axund Əhməd Salyanını, dünya şöhrətli maestro Arif Məlikovu, Ağaxan Ağabəyli, Firuz Məlikov, Əlövsət Quliyev kimi akademikləri, İdris Seyidov, Mərdan Muradxanlı, Ənvər Qasımzadə, Soltan Mənəfov kimi professorları, nüvə fizikası üzrə məhşur alim Rafil Rzayev, azadlıq və istiqlal şairi Xəlil Rza Ulutürkü, Əliağa Kürçaylını, Böyükağa Talıblını və adlarını çəkmədiyimiz onlarla ləyaqətli övladları yetirən Salyan torpağı da respublikamızın müstəqillik qazandığı gündən inkişaf yolunun yeni mərhələsinə qədəm qoymuşdur.

Yarandığı gündən zamanın tələbinə uyğun olaraq gənc və yenlyetmələrə müxtəlif ixtisas və peşələr verməklə gələcəyin kamil mütəxəssislərini hazırlayan Peşə Litseyi təkcə Salyanda yox eləcə də respublikamızın Muğan və Cənub zonasının qovşağında geniş bir regionu əhatə edən coğrafi məkandan sənət, peşə sahibi olmaq istəyənlərin seçilib cəmləndiyi bir məktəb, elm-təhsil məbədidir.

Litseydə tədris, tə`lim və tərbiyə, şagirdlərin seçdiyi ixtisaslara həvəslə yiyələnməsi, onlarla asudə vaxtlarının təşkili uğurlu bir planla - Respublika prezidenti Heydər Əliyev cənablarının təhsil işçiləri qarşısında qoyduğu çox düzgün, ciddi və səmərəli bir planla həyata keçirilir.

Rayonumuzun, eləcədə respublikamızın əmək səlnaməsinə öz şərəfli əməkləri ilə tarixi töhvələr yazan onlarla zəhmət adamının həyata istehsalat vəsiqəsi məhz bu təhsil ocağından verilmişdir. Əldə olunan hər bir uğurun, hər bir müvəffəqiyyətin əsas səbəbi isə işdə Azərbaycan Respublikasının Təhsil İslahatları proqramının məqsədyönlü şəkildə həyata keçirilməsi, respublika müəllimlərinin ənənəvi avqust müşavirəsində - 18.08.2001-ci il tarixdə prezident yanında icra aparatının rəhbəri R.Mehdiyev cənablarının məlum məruzəsindən irəli gələn vəzifələri respublika təhsil naziri M.Mərdanov cənablarının cari tədris ilini keyfiyyət ili e`lan etməsini proqram sənədi kimi qəbul etməyimizdir. Və nəhayət, bütün respublikanın, o cümlədən Salyan Peşə Litseyinin pedaqoji kollektivi də ölkə prezidenti Heydər Əliyev cənablarının latın qrafikasına keçid və milli - mə`nəvi dəyərlərimizin qorunub saxlanılması ilə əlaqədar sərancamlarını böyük ruh yüksəkliyi ilə yerinə yetirirlər ki. bu da tə`lim-tərbiyə işlərini daha da müvəffəqiyyətlə həyata keçirilməsinin qarantıdır.

Salyan Peşə Litseyində tədrisin, tə`lim və tərbiyənin günün tələbləri səviyyəsində həyata keçirmək üçün hər cür şərait yaradılmışdır.

Hər yeni dərs ilində rayon icra hakimiyyəti, ağsaqqallar, ziyalılar, idarə və müəssisə rəhbərləri ilə məsləhətləşmələr aparılır, ixtisaslar və peşələr yerli tələbata uyğun müəyyənləşdirilir ki, bunun da nəticəsində litseyi bitirən mə`zunlar işsiz qalmırlar.Ümumiyyətlə, Salyan Peşə Litseyi rayonun ictimai - siyasi və sosial həyatında mühüm rol oynayır.

Salyan şəhərində 1941-ci ildən 104 saylı və 1974-cü ildən 76 saylı texniki peşə məktəbləri fəaliyyət göstərmişlər.104 saylı texniki peşə məktəbi kənd təsərrüfatı sahələri üçün, 76 saylı texniki peşə məktəbi isə sənaye peşələri üzrə ixtisaslı fəhlə kadrları hazırlığı aparmışlar. 1996-cı ildə Nazirlər Kabinetinin 23 avqust 116 saylı əmri və buna müvafiq olaraq Təhsil Nazirliyinin 02 sentyabr 440 saylı əmri ilə Salyanda fəaliyyət göstərmiş bu texniki peşə məktəbləri birləşdirilmişdir. Beləliklə, 02 noyabr 1996-cı ildən bu texniki peşə məktəblərinin bazasında peşə litseyi fəaliyyətə başlamışdır.

Hazırda litseydə kənd təsərrüfatı və sənaye peşələri üzrə ixtisaslı kadrlar hazırlanır. Litseydə Müdafiə Nazirliyi üçün avtomobil nəqliyyatı sürücüsü kadrlarının hazırlığı aparılır. Ödənişli əsaslarla ayrı-ayrı ixtisaslar üzrə qruplar fəaliyyət göstərir. Litsey aşağıda göstərilən peşələr üzrə kadr azırlığı aparır:

1.Geniş profilli tarktorçu-maşınçı, təmirçi-çilingər, "BS" kateqoriyalı avtomobil nəqliyyatı sürücüsü.



2.Elektirik qaz qaynaqçısı: "BS" kateqoriyalı avtomobil nəqliyyatı sürücüsü.

3.Avtomobillərin təmiri üzrə çilingər: "BS" kateqoriyalı avtomobil nəqliyyatı sürücüsü.

4.Sürücü kommersant.

5.Modelçi-dərzi.

6. Əməliyyatçı mühasib

7. Uşaq tərbiyəçisi-dayə.

Bu ixtisaslar üzrə kadrlar haırlanması üçün litseyin zəngin maddi , texniki bazası vardır. Beiəki litseyin 2 tədris binası vardır.1-ci əsas binada 8 texniki fənn kabneti, 9 ümumi fənn kabneti, 1 idman zalı, 1 kitabxana, hərbi idman kompleksi və 3 emalatxana yerləşir. Tədris prosesi əsasən bu binada aprılır. 2-ci binada isə avtomobillərin quruluşu və istismarı üzrə labaratoriyalar, çilingərlik emalatxanası vardır. Avtomobillər və traktorlardan fərdi sürgü dərsləri bu binanın açıq sahəsində yeni təşkil edilmiş avtodromda aparılır. Litseyin maddi texniki bazasını artırmaq məqsədilə bir sıra yenidənqurma işləri aparılmışdır.Belə ki, Lazımi əyani və texniki vasitələrlə təchiz edilmiş yol hərəkəti qaydaları kabineti, traktor və avtomobillər kabineti yaradılmışdır. Şagirdlərin hərbi vətənpərvərlik sahasində bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə müasir üslubda hərbi idman kompleksi qurulmuşdur.

Yol hərəkəti qaydaları kabnetində olan əyani və texniki vasitələr proqram materiallarını tam ödəyir.

Bu kabinetdə xəbərdaredici nişanlar üzrə elektirikləşdirilmiş tablo, üstüklük və qadağanedici nişanlar üzrə elektirikləşdirilmiş tablo, eyni zamanda məcburi hərəkət istiqaməti nişanları üzrə mə`lumatverici-göstərici nişanlar üzrə, svetaforlar üzrə elektirikləşdirilmiş tablolar vardır. Yol nişanları svetaforlarla təmin olunmuş elektirikləşdirilmiş şəhərcik maketi vardır.

Avtomobillərin qurluşu labaratoriyasında olan əyani və texniki vasitələr daha da zəngindir. ZİL-130 maşınının mühərriki, sür`ətlər qutusu kardanvalı, qabaq, orta və arxa körpüləri, bölüşdürücü qutu, iabaratoriyada vardır və yararlı vəziyyətdədirlər.Labaratoriyada KAMAZ-4310 maşınının sür`ətlər qutusu, kardan ötürməsi, orta, arxa, qabaq körpüləri və sükan mexanizmiləri yararlı halda labaratoriyada yerləşir.Avtomobilin qurluşu kabinetdə olan yararlı texniki vasitələr bunlardır.ZİL-130 markalı avtomaşınının arxa, qabaq körpülərinin kəsiyi mühərrikin kəsiyi, maşın "Moskivlç-412" avtomobilinin mühərrikinin, kardan valının, arxa, qabaq körpülərinin kəsiyi, kamaz avtomobilinin mühərrikinin və sür`ətlər qutusunun kəsiyi, QAZ-51 avtomobilinin sür`ətlər qutusunun kəsiyi, yanacaq nasosunun elektirikləşdirilmiş stendi, V-9DQ, K-126V karbiratorunun elektirikləşdirilmiş sxemi,K-88 və K-89 karbiratorunun elektirikləşdirilmiş sxemi, KRAZ-255 V avtomobilinin ilişmə muftasının elektirikləşdirilmiş sxemi,

ZİL-131 avtomobilinin bölüşdürücü qutusunun elektirikləşdirilmiş sxemi, URAL-375 avtomobilinin pnevmohidravlik tormoz sisteminin elektirikləşdirilmiş sxemi, QAZ-66 avtomobilinin sükan gücləndiricisinin elektirikləşdirilmiş sxemi, Birsilindirli mühərrik maketi, yağ nasosunun maketi, sərbəst gediş muftası maketi, yüksək təzyiqli yanacaq nasosu seksiyasımaketi, avtomobilin qurluşuna dair plakatlar.

"Avtotrenajor-T-5m"markalı stend qurulmuşdur ki, bu da şagirdlərin ilk tədrisləri öyrənmələrinə köməklik göstərir.

Avtomobillərə texniki qulluq labaratoriyasında yararlı vəziyyətdə 2 ədəd ZİL-131 avtomaşını, bir ədəd KAMAZ-4310 avtomaşını, 1 komplekt isti nizamlanma mühərriki vardır.

- Yeni müəllimlər otağı yaradılmış və lazımı metodiki guşələrlə təchiz olunmuşdur. Litseyin giriş hissəsində tamamilə yenidənqurma işləri, foyedə isə şəhid məzunlarının xatirə löhvəsi, H.Əliyev guşəsi və bir sıra guşələr yaradılmşdır. Yenidanqurma işləri davam etdirilir.Litseyin 70 hektar sahəsi olan tə`lim təsərrüfatı vardır.

Bundan başqa Peşə Litseyində avtomabil qurluşu Avtotrenajor kabinetləri də öz geniş fəaliyyəti ilə daim diqqət mərkəzindədir. Bu kabinetlərin də öz zəngin iş avadanlıqları vardır.

- Son illər litseyə verilən şagird qəbulu üzrə planlar vaxtında və tam yerinə yetirilir. Belə ki, natamam orta təhsil bazasından 90 nəfər şagird qəbulu planı 01 sentyabr 2001-ci il tarixə kimi komplektləşdirilmişdir.

Cari ildə Müdafiyə Nazirliyi üçün hazırlanan avtomobil nəqliyyatı sürücüsü ixtisası üzrə 200 nəfər qəbul edilmişdir.

2001-2002-ci il tədris ilində litseydə orta təhsil qruplarında 254 şagird təhsil alır, o cümlədən 1-ci kurslarda 90 nəfər, 2-ci kurslarda 76 nəfər, 3-cü kurslarda 88 nəfər təhsil alır. Tədris ili ərzində litseyin şagird kontingenti sabit qalmış, üzürsüz səbəbdən yayınma halları yoxdur. Yalnız 2 nəfər şagird litseydən xaric edilmişdir. 1 nəfər yaşayış yerini dəyişdiyi üçün, 1 nəfər isə vəfat etdiyi üçün - litseydə uzun müddət işləyən və pedaqoji təcrübəyə malik mühəndis müəllimlər çalışır. Belə ki, hazırda şagirdlərin təlim-tərbiyəsi ilə 38 müəllim, 24 istehsalat təlimi ustası, 8 sürücü təlimatçı çalışır. 33 nəfər müəllim ali təhsilli, 5 nəfər isə orta ixtisas təhsilə malikdir. İstehsalat təlimi ustalarından isə 3 nəfəri ali təhsilli, 21 nəfəri isə orta ixtisas təhsillidir. Litseyin müəllim və ustalarının ixtisaslarını artırmaq məqsədilə tərtib edilmiş qrafik əsasında göstərilən müddətlərdə ixtisasartırma kurslarından keçiriər. Rəhbər və mühəndis pedaqoji işçilər dərs ilinin əvvəlindən başlayaraq hər bir şagirdin bilik, bacarıq və istedadını, təhsilə, əməyə və ictimai tapşırıqlara münasibətini, ailə şəraitini öyrənir və bütün bunları nəzərə alaraq təlim-tərbiyə prosesinin planlaşdırırlar. Buna görə də dərs ili ərzində şagirdlərin dərslərə davamiyyəti 80-85 faiz təşkil edir. Tədris ili boyu şagirdlərdə vətəndaşlıq ruhunun tərbiyə edilməsi, elmi dünyagörüşlərinin formalaşması, ideya, siyasi səviyyələrinin yüksəldilməsi üçün daima ardıcıl iş aparılır.

Bu tədris ili Azərbaycan Respublikasının müstəqilliyinin 10-cu ildönümünə təsadüf edir. Bu müstəqillik litseyin pedaqoji kollektiv üzvülərinin qarşısında tamamilə yeni vəzifələr, yeni tələblər qoyur.

Litseydə elmi-kütləvi tədbirlər, viktarinalar, dispudlar, görüşlər, idman yarışları, litsey daxili olimpiadalar keçirilir.

"Narkomaniya əsrin bəlasıdır" mövzusunda keçirilmiş dispydda rayonun icra hakimiyyətinin, polis orqanlarının, səhiyyə işçilərinin nümayəndələri, eyni zamanda ümumtəhsil məktəblərinin direktorları və şagirdləri iştirak etmişlər. Bu tədbir rayonda böyk maraq doğurmuşdur.

18 oktyabr dövlət müstəqilliyinin 10-cu ildönümü ilə əlaqədar təntənəli yığıncaq keçirilmişdir.

8 mart qadınlar günü bayramı qeyd edilmişdir.

Bir çox tədbirlər fotoşəkil və vidiokasetə çəkilmişdir.

Litseydə milli və hərbi vətənpərvərlik işinin yaxşılaşdırılması məqsədilə litseyin "Döyüşçü məzunları","Şəhid oğullar" adlı fotovitrin yaradılmışdır.

Litseyin foyesində və kitabxanasında Prezident H.Əliyevin həyat yoiu və fəaliyyətinə həsr olunmuş stendlər təşkil edilib.Litseydə bütün yazılar latın qrafikası ilə aparılır.

*Əlisakit Ağababaoğlu*

# GƏNCLİYİMİZ GƏLƏCƏYİMİZDİR



Məmmədov Ənvər Hacıməmməd oğlu 1948-ci ildə Qubanın Xınalıq kəndində anadan olub. O, BDU-nun filologiya fakultəsini bitirib. İlk əmək fəaliyyətinə Sverdlovski şəhərindən başlayıb. O,burada neft-qaz çıxarma idarəsində nəzarətçi işləyib. Ənvər müəllim tələbə ikən indiki şəhid Rü`fət Kəlbəliyev adına orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib. Onu da qeyd edim ki, Rü`fət Kəlbəliyev bu məktəbin mə`zunu olub. Fizuli rayonunda döyüşlərin birində qəhrəmancasına həlak olub. 1976-cı ildə Ənvər müəllim Rü`fət Kəlbəliyev adına orta məktəbə direktor tə`yin edilib.Mə`lumdur ki, Təhsil Nazirliyinin qərarı ilə 2001-2002-ci il təhsildə keyfiyyət ili e`lan olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, respublika prezidenti elmə, təhsilə xüsusi diqqət və qayğı ilə yanaşır. Bu qayğının nəticəsində bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də xeyli irəliləyiş vardır. Belə ki, məktəblərdə təhsil sistemi yeniləşdirilmiş, keyfiyyət artmışdır. Bu sözləri Ənvər müəllimin rəhbərlik etdiyi məktəbə də həvalə etmək olar. Hal-hazırda məktəbdə təhsilin yüksək səviyyədə təşkili müsbət dəyişikliklərlə həyata keçirilir.Bu məktəbdə dərs deyən müəllimlər son dərəcə tələbkar və öz biliklərini şagirdlərdən əsirgəməyən müəllimlərdir. Bunun nəticəsidir ki, məktəbi bitirən mə`zunların əksəriyyəti ali və orta ixtisas məktəblərinə daxil olur. Ali məktəblərə daxil olanlar içərisində oğlanlar çoxluq təşkil edir. Bu il qızlardan yalnız bir nəfər Xəlilova Pərvanə Mirağa qızıdır ki, oda BDU-nin kitabxanaçılıq və biblioqrafiya fakultəsinə daxil olub. Məktəbin şagirdləri müntəzəm olaraq hər il bütün idman tədbirlərində iştirak edirlər. Ənvər müəllim gələcəyimiz olan gənclərin sağlam ruhda yetişməsi, elmə, təhsilə yiyələnməsi üçün yeni-yeni nailiyyətlər əldə etmək uğrunda durmadan çalışır. O, vaxtaşırı Rayon Təhsil Şö`bəsində keçirilən toplantılarda fəal iştirak edir, Məktəblərdə olan çətinliklərin aradan qaldırılması üçün məsləhətlər alır. Bu ilin sentyabr ayında Təhsil Naziri Misir Mərdanov Ənvər müəllimin rəhbərlik etdiyi bu məktəbə gəlmiş, məktəblilərin təhsili ilə maraqlanıb, yaxından tanış olmuşdur.Respublika prezidentinin məktəblərə, gənclərə qayğısı nəticəsində Xınalıq kənd məktəbi də əsaslı tə`mir edilmişdir. Əlbəttə Ənvər müəllimin bu işdə də az əməyi olmamışdır. Müstəqil Azərbaycanın yeni, gənc nəslinin tə`lim - tərbiyəsi, təhsili lazımi səviyyədə həyata keçirilməsi hər bir məktəb direktorunun, müəllimin, ziyalının başlıca vəzifəsidir. Bunu ləyaqətlə həyata keçirən, öz əməlləri ilə hamının sevimlisinə çevrilmiş Ənvər müəllimin arzuları böyükdür. Ən böyük arzusu yeni inkişaf yollarına qədəm qoyan gənc və müstəqil respublikamızın əsil qurucularını yetişdirmək, torpağa, xalqa bağlı, millətini sevən, vətənini qoruyan vətən övladları ilə fəxr edib qürur hissi ilə yaşamaqdır. Bu yolda ona biz də uğurlar arzulayırıq.

*XAHKİŞİYEVA ELMİRA.*

# BUNU UNUTMAQ OLMAZ!



**Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə.**
**İşğal tarixi: 1988-1994-cü illər, sahəsi 4400 kv. km.**
**Laçın-17 may 1992-ci il- sahəsi 1835 kv. km.**
**Kəlbəcər-3-4 aprel 1993 -cü il-1936 kv. km.**
**Ağdam-23 iyul 1993-cü il-1094 kv. km.**
**Cəbrayıl-23 avqust 1993-cü il-1050 kv. km.**
**Fizuli -23 avqust 1993-cü il-1386 kv. km.**
**Qubadlı-31 avqust 1993-cü il-802 kv. km.**
**Zəngilan-30 oktyabr 1993-cü il-707 kv. km.**



*Müsahibimiz Natiq Hüseyinbala oğlu İsmayılovdur.*

***1969-cu ilin oktyabr ayında Salyan şəhərində anadan olub.Orta təhsillidir. Bənna işləyir. Ailəlidir.***

Salyan şəhər N.Gəncəvi adına 2 saylı orta məktəb rayonumuzun özünəməxsus ənənələri olan təhsil müəssisələrindən biridir.Hazırda məktəbdə 78 nəfər pedaqoji işçi çalışır. Müəllimlər yüksək pedaqoji və metodik vərdişlərə malik olmaqla, öz bacarıq, yaradıcı iş keyfiyyətləri, təhsilin humanistləşdirilməsi, şagirdlərə yeni təfəkkürün formalaşdırılması sahəsində nailiyyətlər qazanmışlar. Onlar özlərinin zəngin bilik, bacarıq və vərdişlərini yeni naslin tə`limi və tərbiyəsi kimi şərfəli işə bacarıqla sərf edirlər. Məktəbin bütün bu kimi keyfiyyətlərini nəzərə alıb, mən də uşaqlarımı bir Valideyn kimi həmin məktəbdə təhsil almağını istəmişəm.Mənim oğlanlarım Hüseyinbala, Seymur və Xəyalda bu məktəbdə təhsil alırlar. 2000-2001-ci tədris ilində məktəbin 10-11-ci siniflərində 756 nəfər şagird təhsil almışdır. Əlamətdar haldır ki, bu il 43 nəfər şagird məktəbi müvəffəqiyyətlə bitirərək respublikanın ali məktəblərinə və özəl institutlara qəbul olmuşdur. Ötən tədris ilində məktəbdə yüksək tə`lim keyfiyyətlərinə nail olunmasında müəllimlərdən H.Mehdiyevanın, S.Ağalarovanın, V.Məmmədovanın, X.Zeynalovanın, Ə.Hüseynovanın, T.Ağalarovun, G.Səfərovanın, H.Qurbanovun, M.Əliyevanın və başqalarının gərgin əməyini xüsusilə qeyd etmək istərdim.Məktəbdə sağlam və işgüzar mühüt, mə`nəvi iqlim yaradılması məqsədi ilə gənc və bacarıqlı təhsil işçisi Firudin Həsənov 2000-ci ilin aprel ayından məktəbə direktor tə`yin olumuşdur.Buda az vaxt içərisində tə`lim-tərbiyə işlərinin keyfiyyətinin yüksəldilməsində pedaqoji kollektivdə intizamın və mütəşəkkilliyin möhkəmlənməsində həledici rol oynamışdır. Bir məsələni də qeyd etmək istəyirəm ki, rayon İcra Başçısının 1-ci müavini Mə`sud Əhmədovun,təhsil, səhiyyə və mədəniyyət məsələləri üzrə müavini Vasif Zərbəliyevin, 38 saylı yoltikinti idarəsinin rə`isi Vaqif Hüseynovun, tanınmış ziyalı Yəhyə Əliyevin, Seyfulla İsmayılovun, Akif Məmmədyarovun, Mübariz Hümmətovun, Azər Şirinovun, Elxan Mehdiyevin, Ələsgər Mehdiyevin, Rü`fət Ağalarovun, Əlfağa Qasımovun, Abduləli Nəcəfovun, Salyan Bələdiyyəsinin sədri Tahir Məmmədovun və başqalarının köməklikləri sayəsində ümumi sahəsi 380 m olan 14 sinif otağı tikilmişdir. Məktəb üçün 5 tonluq su çəni qoyulmuş, köhnə sinif otaqları tə`mir olunmuş, pəncərələr restavrasiya olmuş, baseyinlər tə`mir edilmişdir. İcra başçısının mayın 28-də məktəbimizin keçmiş mə`zunlarına və iş adamlarına müraciətindən sonra sadaladığım işlər mümkün olmuşdur. Mənim də uşaqlarım həmin məktəbdə təhsil aldıqlarından mən də həmin məktəbdə tə`mənnasız olaraq işləmişəm, İdman müəllimi Nəcəfağa bütün yayı məktəbdə işləyib, santexnik işləri, dəmir qapıları, hasarın üstünə dəmir məhəccərləri düzəldib qoyan Zakirə dərin minnətdarlığımı bildirirəm. Səmədov Əlirza Bayram oğlu da məktəbdə elektirik işlərinin görülməsinə , işıq çəkilməsinə söz verib. Məktəb təhsil ocağıdır, ona qayğı isə hər birimizin borcudur.



*Əlisakit Ağababa oğlu.*

# TƏ`LİM-TƏRBİYƏ BAĞÇADAN BAŞLAYIR



*Gənc nəslin tə`lim-tərbiyəsinin formalaşdırılmasının təməli məktəbəqədər pedaqoji tədris ocaqları - uşaq bağçalarında qoyulur. Şəki şəhər təhsil şö`bəsi nəzdində belə müəssisələr kifayət qədərdir. Artıq əhali arasında seçim fikri də formalaşıb - hansı uşaq bağçası daha yaxşıdır?*

Öz təqdirəlayiq fəaliyyəti ilə müsbət rə`y qazanmış 24 saylı uşaq bağçasına gəlişim də təsadüfi olmadı. Hər dəfə Şəkiyə səfərimdə bu uşaq bağçası və onun kollektivi haqqında gedən xoş fikirləri eşidirdim.

Uşaq bağçasının müdürəsi, gözəl və təcrübəli pedaqoq Bəsti xanım İbrahimovanın qısa, lakin əhatəli söhbətində işin əsas mahiyyətini görmək mümkündür;

- 1991-ci ildən bu uşaq bağçasına rəhbərlik edirəm.

Bağçaya 43 nəfər məktəbəqədər uşaq gəlir. Hər il bu rəqəm artır. Valideyinlər öz övladlarını səhər saat 8-dən axşam saat 5-ə kimi bizə e`tibar edirlər. Aylıq üzvülük haqqı 770 manatdır. Bu məbləğ indiki şəraitdə mənə elə gəlir ki, bütün valideyinlər üçün münasibdir.

Uşaqların təlim-tərbiyəsi ilə 7 müəllim, 3 tərbiyəçi məşğul olur. Müəllimlər pedaqoji təhsillidirlər. Gün ərzində uşaqların düzgün qidalanma, yuxu, oyun rejimlərinə ciddi diqqət yetirilir.

Onlar hər səhər dövlət himnimizi dinlədikdən sonra əyləşirlər. Artıq uşaqlarda müstəqil Azərbaycan Respublikasının dövlət himni, gerbi, bayrağı haqqında mə`lumat var. Onlar bu atributlara hörmətlə yanaşırlar.

Qruplar bir qayda olaraq böyük, kiçik və orta yaş qrupları üzrə yaradılıb və hər qrupda müəllmlər uşaqların yaş səviyyələrinə, fiziki və mə`nəvi imkanlarına uyğun məşğələlər keçirirlər.

Demək olar ki, hər ay şe`r, mahnı, idman, rəsm üzrə müsabiqələr keçirilir.

Böyük qruplarda uşaqların məktəbə hazırlıqlı səviyyədə öyrədilmələri onların 1-ci sinifdə yüksək nəticələr əldə etmələrinə zəmin yaradır. Xüsusən İsmayılova Nazəni, Quliyeva Mahirə, Cabbarova Venera, Həsənova Şərafət, Məmmədova Günəş kimi yüksək ixtisaslı və hümanist müəllimlərin əməyi sayəsində bu nəticə əldə edilir.

Müəllimlərin plan - proqramlarının yoxlanması təhsil şö`bəsinin bağçalar üzrə inspektoru Ulduz xanım Rəhimovanın və metodist Günəş xanımın nəzarəti ilə keçirilir. İş planlarımız müasir tələblərə cavab verən səviyyədə qurulur. Şəki rayon təhsil şö`bəsi hər ay bağçaların maddi təminatını ödəyir. Əmək haqqını vaxtlı-vaxtında alırıq.

Şəkidə təbii qaz olmasa da, təhsil şö`bəsi bağçanı maye qazla tə`min edir. Valideyinlər də belə xidmətlərdən çox razıdırlar. Gördüyünüz kimi yerləşdiyimiz bina da uşaq bağçası səviyyəsinə uyğunlaşdırılmış binadır. Lakin cari tə`mirə ehtiyac var. Ümid edirik ki, dövlətimizin büdcəsində vəziyyət imkan verərsə bu sahəyə də diqqət yetiriləcək.

Bəsti xanım həm də gözəl ailə sahibidir. Övladları ali təhsillidirlər. Oğlu Mehman Cəmşid Naxçıvanski adına hərbi məktəbdə təhsil alır. O, həm bir ana, həm də 30 illik iş təcrübəsinə malik pedaqoq kimi bu həqiqətlə fəxr edir. Qeyd edək ki, Bəsti xanımın həyat yoldaşı Kamil İbrahimov - məşhur tarzən olub. "Qızıl fond"da onun əsərləri qorunur.

Belə bir xoş təəssuratla 24 saylı uşaq bağçasından ayrıldım.

*ELNARƏ İSMAYILOVA.*

# ELOĞLUNUN EL QAYĞILARI



Təbii sərvətləri, gözəl təbiəti ilə bizi ovsunlayan axarlı-baxarlı Kəlbəcər torpağı həmişə sadə zəhmət adamlarının yaşadığı bir bölgə olmuşdur.

Tarixin müxtəlif mərhələlərində dəfələrlə təcavüzə mə`ruz qalsa da igid övladları sayəsində Kəlbəcər öz vüqarını İnamla qoruya bilmişdir. Lakin namərd qonşularımızın öz havadarları ilə birləşərək bu gün torpağı və təbii sərvətləri ilə birgə bu ərazini də işğal edə bilmişdir.İndi Respublikamızın müxtəlif bölgələrində məskunlaşan Kəlbəcərlilər müvəqqəti köçgünlük günlərini yaşayırlar. Məhz bu çətin vaxtda qurmaq-yaratmaq əzmi ilə yaşayan insanların gündəlik qayğıları ilə tanış olmaq üçün Kəlbəcər rayon qərargahı yerləşən Gəncə-Xanlar rayonunun üstündəki müvəqqəti yaşayış ünvanına gedirik.

Əvvəlcə 20-ci əsrin nəhəng şəxsiyyətlərindən olan ölkə prezidenti Heydər Əliyev cənablarına olan məhəbbət və inamda yoğrulmuş və zövqlə işlənmiş "Heydər Əliyev irsi muzeyi"nin geniş salonuna daxil oluruq.

Burada bizi respublikanın müxtəlif bölgələrinə səpələnmiş tədris müəssisələrinin gərgin işi və təhsil islahatlarından doğan vəzifələrin təşəbbüskar icraçısı rayon Təhsil şö`bəsinin müdiri Məhəmmməd Bağırov qarşılayır.

Muzeyin ekspanatları ilə bizi tanış edən M.Bağırov deyir: Bu gün biz bizi yaşadan, mə`nəvi ruh verən ölkə prezidenti möhtərəm Heydər Əliyevə olan ümüddür, inamdır. Ancaq onun gücü və iradəsi biz insanları doğma yurduna qayıdacağı inamı ilə yaşadır. Bu gün bu müdrik insanın gündəlik işinin nəticəsidir ki, əlaqədar nazirliklər məcburi köçkünlərin ən xırda qayğıları ilə yaşayırlar. Belə ki, Təhsil naziri Misir Mərdanovun, Səhiyyə naziri Əli İnsanovun, Respublika prokuroru Zakir Qaralovun, Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən məcburi köçkünlərə humanitar yardımlar edilir, onlara maddi və mə`nəvi dayaq olurlar. Bunu nəinki Kəlbəcərli köçkünlər o cümlədən Kəlbəcər Təhsil işçiləri də daim hiss edirlər.

Rayonun təhsil şöbəsinin müdiri M.Bağırov yoldaş 1979-cu ildə Gəncə Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitiribdir. Ailəlidir, iki övladı var. Başçılıq etdiyi şöbədə 1800 nəfər çalışır. 1000 nəfərdən artıq şagird təhsil alır. 2000-ci tədris ilində 586 nəfər şagird məktəbi bitirmiş, onlardan 140 nəfəri ali məktəblərə daxil olmuşdur. M.Bağırov belə izah etdi ki, Respublikamızın hərtərəfli inkişafında Təhsil Naziri Misir Mərdanovun apardığı Təhsil islahatları qaçqın və məcburi köçkünlərin təhsilinə, məktəblərin işinə göstərdiyi qayğı bütün qaçqınlara göstərilən hörmətdir və bu bizi ruhlandırır. Kəlbəcər Təhsil İşçiləri bu qayğılardan ruhlanaraq öz işlərini həmişə yuksək səviyyədə qurmağa nail olurlar. Respublika müsabiqələrində uğurla iştirak edirlər.

Təhsilin humanistləşdirilməsi ilə əlaqədar "İlin ən yaxşı müəllimi" müsabiqəsində müəllim Həmidov Kamran Bəşir oğlu 3-cü yeri, iki mühazirə isə yenə də 3-cü yeri tutmuşdur. Bakı şəhərində fəaliyyət göstərən 20 saylı məktəbimiz yaratdığı fəaliyyəti ilə fərqlənən tə`limtərbiyə müəssisəsi 1-ci yeri tutubdur. Məktəblərdə maddi bazanın möhkəmləndirilməsi müəllimlərə, məktəb rəhbərlərinə, elmi-pedaqoji, metodiki köməklik göstərilməsi işçilərin daim diqqət mərkəzindədir. M.Bağırov müəllimlərin 11-ci qurultayında çıxış edərək təhsilin inkişafı 5 təklif irəli sürmüş və bu təklif Təhsil Nazirliyi tərəfindən bəyənilmişdir.

Respublika Olimpiadasında Kimya-biologiya fənni üzrə məktəbin 2 şagirdi 4-cü yeri tutmuşlar. Bundan əlavə Maarif şö`bəsində müzakirə edilir, nəticələri vaxtlı- vaxtında məktəblərə çatdırılır. Məktəbin pedaqoji kollektivi həmin fərman və sərancamları dərindən öyrənib öz işlərində tətbiq edirlər.

İslahat proqramı ilə dərs deyən 1-ci-sinif müəllimlərinin hamısı kursdan keçmiş. 1,5,10-cu sinif yeni islahat proqramı əsasında tə`limə başlamışlar. Bu baxımdan Təhsil şö`bəsi həmin sinifləri ciddi nəzarətdə saxlayır.

Bütün qaçqınlar hörmətli prezidentimizin daxili və xarici siyasətini bəyənərək təhsil sisteminin təkmilləşdirilməsi 13 iyun 2000-ci il fərmanını bəyənmiş, ona uzun ömür, can sağlığı arzulamışlar. Arzu etmişlər ki, torpaqlarımız sülh yolu ilə geri alınsın və onlar öz yurd-yuvalarına dönsünlər.

*Hazırladı: QƏZƏNFƏR GƏNCƏLİ.*

# İDMANIN İNKİŞAFI DİQQƏT MƏRKƏZİNDƏDİR



*-Əhmədov Məmməd Əbülfət oğlu 1968-ci il noyabr ayının 5-də Şəki şəhərində anadan olub. Şəki şəhər 8 saylı orta məktəbi 1985-ci ildə bitirib. Elə həmin il Voronej Texnologiya İnstitutunun "Ət mə`mulatı texnologiyası" fakültəsinə qəbul olunub.*

*1987-89-cu illər Almaniyada hərbi xidmətdə olub. 1992-ci ildə həmin İnstitutu "mühəndis texnoloq"ixtisası ilə qurtarıb. 1999-cu ilin dekabar ayından Şəki şəhər gənclər və idman idarəsində rəis müavini vəzifəsində, 2000-ci ilin iyul ayının 9-dan isə həmin idarədə rəis vəzifəsində işləyir. Ailəlidir, 2 uşaq atasıdır.*

Xalqın beynəlxalq arenada təmsilinin ən mühüm vəzifəsindən biri məhz idmandır. Müstəqilliyimizin ilk illərində ölkədəki mövcud siyasi-iqtisadi böhran idmana da öz təsirini göstərməkdə idi. O vaxtkı hakimiyyət bu sahəyə demək olar ki, sonuncu dərəcəli məsələ kimi baxırdı. Məhz millət vəkili İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti kimi fəaliyyətə başlamasından sonra Azərbaycanın idman sahəsində dönüş yarandı. İdmançılarımızın xarici ölkələrdə Azərbaycanın bayrağını qaldırması, respublikaya qələbələrlə dönməsi məhz İlham Əliyevin idmançılara olan diqqət və qayğısının və bu sahədə apardığı ardıcıl fəaliyyətinin bəhrəsidir. Azərbaycan idmanı özünün ən yüksək pilləsinə isə Avstraliyanın Sidney şəhərində keçirilən XXVII Yay Olimpiya Oyunlarında çatdı. Bu olimpiada Azərbaycanı təmsil edən idmançılarımız vətənə 2 qızıl və 1 bürünc medalla döndülər. Azərbaycan Sidneydə həqiqətən böyük qələbəyə nail oldu, reytinq cədvəlində yüksək yerlərdən birini tutdu. Şübhəsiz ki, idman sahəsində əldə olunan uğurların ən böyük səbəbkarı ölkə prezidenti Heydər Əliyevdir. Onun olimpiya oyunlarına hazırlığa dair fərmanları, idman və bədən tərbiyəsi haqqında qanun qəbul etməsi və yarışların nəticələrinə dair mükafatlar ölkədə idmana xüsusi maraq yaradırdı. Bu gün Azərbaycan xalqı həmin uğurlara görə möhtərəm prezidentimizə və onun layiqli davamçısı olan İlham Əliyevə borcludur. *Milli Olimpiya Komitəsinin prezidenti* seçilən millət vəkili İlham Əliyevin dediyi kimi, qarşısına qoyduğu ən əsas vəzifə idmançılarımızın Sidney Olimpiadasından medallarla vətənə qayıtması idi. Buna görə də o, idmançılarımızın çıxışlarının yüksək səviyyədə tə`min edilməsi və lazımi işlərin görülməsi üçün əlindən gələni əsirgəmirdi. İlham Əliyev idmançılarımızın Sidneydən qələbə ilə qayıdacaqlarına əmin idi: "Biz əminik və inanırıq ki, Sidneydən qələbə ilə qayıdacağıq". Elə də oldu. Sidney Olimpiadasından sonra beynəlxalq idman qurumlarının da Azərbaycana marağı artır.

İlham Əliyev Azərbaycanın idman sahəsinə olan böyük diqqəti və qayğısı nəticəsində ölkəmizdə idmanla məşğul olmaq prosesinin kütləvi xarakter almasına çalışır. Bunun nəticəsidir ki, 17 noyabr 2001-ci il tarixdə Şəki şəhərində gənclərin çoxdankı arzusu həyata keçdi. Milli Olimpiya komitəsi tərəfindən cənab İlham Əliyevin təşəbbüsü sayəsində Şəkidə Olimpiya Sağlamlıq kompleksinin tə`məl daşı qoyuldu. Bu vaxtacan Şəkidə bu səviyyədə idman üçün yararlı olan bina, və yaxud gözəl şərait yaradılmamışdır. Bu hadisənin həyata keçirilməsi İlham Əliyev cənablarının gənclərə olan qayğı və diqqətinin təzahürüdür. Həmin hadisə ilə əlaqədar Şəkidə yığıncaq keçirildi. Yığıncaqda 10 mindən artıq Şəki şəhər gəncləri iştirak edərək öz fikir və sevinclərini bildirdilər. Olimpiya Sağlamlıq Mərkəzinin tikintisi bundan sonra Şəki şəhərində mö`təbər yarışların keçirilməsinə şərait yaradacaq və şəhərdə bədən tərbiyəsi və idmanın inkişafını təmin edəcək. İnanırıq ki, belə komplekslərin tikilib istifadəyə verilməsi, idmançımızın regionlarda da inkişaf etdirilməsinə böyük təkan verəcəkdir. Biz ümüd edirik ki, xarici ölkəlrdə keçirilən yarışlarda yeni-yeni qələbələr qazanaraq, bayrağımızın yüksək zirvələrdə dalğalanmasına, möhtəşəm himnimizin səsləndirilməsinə nail olacağıq.

*Hazırladı:ELNARƏ.*

# YENİ QƏLƏBƏLƏR

6 yanvar 2002-ci il tarixdə Salyan şəhərində təşkil edilmiş "UŞU-Kikboksinq" yarışı keçirildi. Yarışı giriş sözü ilə klubun rəhbəri Telman Cəfərov açaraq, idmançılara qələbələr arzulayıb və bu idmanın Respublikamızda populyarlaşmasında, klub və bölmələr arasındakı əməkdaşlığın artması,gənclərin idmana cəlb olunması, onların sağlam hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması və ən güclü idmançıların Beynəlxalq yarışlarda iştirak etmələri üçün seçilməsindən söz açdı.

Yarışda 6 klub öz gücünü sınadı. Hacıqabul, Əli-Bayramlı kamandaları, Arbatan kənd məktəbi, Xalac məktəbi, "Plastik" və "Rabitə"çi komandaları.

Yarış çox gərgin və maraqlı keçdi və nəticədə "Plastik" komandasından 4 nəfər, Əzizov Rəşad, Nəcəfov Elvin, Ağayev Ağabala, Sadıqov Kəbir - birinci yerə layiq görüldü və diplom və hədiyyələr ilə təltif olundular. "Rabitə"çi komandasından Əliyev Ramil, Şahbazov Bəhruz, Qədirov Kainat, Hüseynov Vaqif birinci yerə çıxdılar, onlar da



diplomlarla təltif olundular. 2-ci və digər yerləri isə "Arbatan" idmançıları bölüşdürüb - 1-ci yerə İsayev Ceyhun, 2-ci yerə isə Pənahov Orxan, Qasımov Elçin, Sadıqov Şəhriyar, Hüseynov Elçin, və qalan yerləri isə Əli-Bayramlı və Hacıqabul idmançıları bölüşdürdülər. Onlara da diplomlar və hədiyyələrlə təltif olundular.

Sonra idmançıları klubun direktoru T.Cəfərov ürəkdən təbrik etdi və onlara yeni-yeni qələbələr arzuladı. Ən yaxşı döyüş texnikası nümayiş etdirən idmançı. Əzizov Rəşad Samid oğluna öz xüsusi hədiyyəsini "Maqnitafon" verib, beynəlxalq yarışlarda vəsiqə qazanması ilə təbrik etdi. Sonunda isə Məşədi İnqlab idmançılara öz hədiyyələrini təltif edib və bu işdə onlara müvəffəqiyyətlər və qarşıdan gələcək yarışlarda yeni qələbələr arzuladı.

*Qələmə aldılar*
*Əlisakit Ağababa oğlu*
*Elşən Əlövsətoğlu.*

# Kirvə qonaqlığı

*( hekayə).*



*Yusif Şükürlü.*

*ASDT - Şəki rayon təşkilatının üzvü, fizika - riyaziyyat elmləri namizədi, AZEA - in Şəki filialı biofizika labaratoriyasının müdiri, bir neçə kitab müəllifi.*

(Əvvəli ötən sayımızda)

Roza bir-iki addım atıb, dayandı və çiyni üstə çevrilərək, nifrətlə Abdurahmanın üzünə baxdı:

- Abdurahman, deyasan manı bəyanmadın?!. Sənın o, axsax Sarıyandan əysiyam?!

- Ay qız ! Nə Sariyə, nə zad? Qələt eləmədik ki, buraya ayaq basdıq! Get həyətə! Aşot, qonşular görər, biabr olarıq!.. Roza, bir özünə gəl!

- Abdurahman! San nə tahar kişisın?!. Niya mənnan belə danışırsan?

- Ay Roza ! Sənnən necə danışım? Mən bura dost evinə qonaq gəlmişəm. Buradakı qadın-qız, hamısı mənim anam-bacımdır!

- Ara, yaxşı, yaxşı! Anabacıya bax!.. Man gediram, ama yaxşı deyip ki, bizımkılər - "musurmanın sonrakı hağılı mənim ola"!

- Roza! Dedim ki, Aşot mənim dostumdur!

- Haa..? Ara, navaxtdan ermanıyla musurman dost olup?! Deyırsan Aşot sanin dostundur, qoy olsun dostun! Na olsun ki, man sanınla dilxoşluq eladım?.. Hamısını vermadım ki! San elə dost-dost diya-diya durmusan! Qorxma, sanin dostuna da qalar!

- Nə qalar?

Roza ürəkdən şaqqanaq çəkib, güldü və çaynik-fincan olan nimçəyə yaxınlaşıb, əyildi və fincana çay süzdü. Qalxanda da elə qalxdı ki, elə bil Adurahmana acıq edirmiş kimi, "qoynunda olanları onun gözünə soxdu". Abdurahman ye"nə "lə"nət şeytana" deyə pıçıldadı.

- Ara, dodağının altında nə danışırsan? Eşitmiram! Otur çayını iç, soyuyur. Onsuz da musurman qananacan dunya dağılacaq!..- deyə Roza saçlarını çiyninə atdı, rişğəndyana gülümsədi və ətəklərini yelləyə - yelləyə həyətə doğru getdi.

Abdurahman çömbəlib, oturdu. İstədi ki, fincandakı çayı içsin, içə bilmədi. Boğazında qaldı. Başını əllərinin arasına alıb, fikrə getdi ki, "bu nə iş idi mən düşdüm?"...

Nə qədər oturduğunu bilmədi və bir vaxt Aşotun səsinə başını qaldırdı. Lakin Aşotun üzünə baxa bilmədi. Utanırdı ondan. Yə"qin elə ona görə idi ki, Aşot elə bilmişdi Abdurahman oturduğu yerdə yuxulayıb:

- Ara! Ay kirvə! Ara dur! Daha bəsdi... Bəs gecəni kim yatacaq?!.

Abdurahman bir anlığa, ürəyində, Rozanın dedikləri ilə Aşotun dediklərini tutuşdurdu.Sözlər eyni, səslər başqa idi! Düşündü ki, "bəlkə Roza düz deyir - erməni ilə müsəlmanın nə dostluğu?!". Elə bil Rozanın sözləri hələ indi ona çatırdı. O, başını qaldırıb Aşotun üzünə baxdı. Sanki, Aşotu birinci dəfə idi görür, onun əyri burnu, göy dodaqları, qeyri-adi əyriliyə malik qaşları ilə birinci dəfəydi rastlaşırdı.

- Ara! Nə olup sana? Dursana!.. Dur gedax!-deyə Aşot əlini irəli uzatdı.

Adurahman onun əlindən tutmadı. Özü qalxıb, belini düzəltdi və Aşota :

- Gedək!- dedi.

Aşot qab-qaşıq olan nimçəni götürüb, qabağa düşdü və Abdurahman da onun ardınca həyətə yollandılar. Həyətə çatanda Abdurahman gördü ki, stolun üstündə samavar qaynayır. Deyəsən quzu da kəsilmişdi. Çünki, hinin damında təzə duzlanmış, nisbətən kiçik qoyun dərisi də var idi.Abdurahman əvvəl-əvvəl özünü Aşota borclu hesab etdi. Sonra fikirləşdi ki, "o da bizə gələr, mən də ona belə yaxşılıqdan dörd dəfə artığını edərəm. Borclu qalmaram buna!.. Amma, öz aramızdır , zalım oğlu özünə yaxşı şərait qurub. Bağı-bağçası, hinidamı, hamamı-təndirxanası, nə bilim, nə, nə... Biz isə Göynüyün daşlığında, şəhərdən betər sıxlıqda qırılırıq. Bunların məhsulu hara , bizimki hara?! Zəhmətimiz çox, fayda az! Bunlar heç vaxt ağır işə girişmirlər. Elə bil hökumət də bunlara dəyib dolaşmır. Biz bir it damı tikən kimi uçaskovu gəlib, durur başımızın üstündə ki, səndən imzasız məktub var. De görək bu damı tikmək üçün mismarı hardan almısan?! Amma bunlar?.. Hansı erməni zəhmət çəkib, kömür yandırıb, satar? hansı erməni dağdan odun kəsib, atla kəndə sürüyər, sonrada doğruyıb dəyər-dəyməzinə verər?.."

Yenə Abdurahmanı Aşotun səsi xəyallardan ayırdı:

- Ara , kirvə! Tika kavab istəyirsan, yoxsa qazan kavavı?

-Aşot! sənin istədiyin mənə də xoşdur!

- Ara, bu lap xoşuma getdı! Bayaq dedım sana çoşqa kəsim, Roza qoymadı ki, o, musurmandı. Quzu kəsdım...

-Sağ ol kirvə! amma lazım deyildi.

- Yoox, nə danışırsan?! Səndan ötru lap camış da kesardım, ama qorxdum yemazsan! ha, ha, ha...

Yenə Aşot Abdurahmanın çiyninə bir şapalaq ilişdirib şaqqanaq çəkdi. Abdurahman fikirləşdi ki, "arsız da adamdı bu Aşot".

İkindi yeməyindən sonra Aşotla Abdurahman söhbət edə-edə yola çıxdılar. Aşot dedi ki, "gedək kəndin başına hava alaq". Bu fikiri Abdurrahmanı da bəyəndi və onlar Göybulağın ortasındakı yol ilə "kənd başına" doğru yollandılar. Yolda rastlaşdıqlarının hamısı onlara ermənicə salam verirdi. Abdurahmanı ən çox maraqlandıran o oldu ki, onun öz Qudlalı tanışı da Abdurrahmangilə ermənicə salam verdi. Axırda Abdurahman dözməyib Aşotdan soruşdu:

- A kirvə! Niyə bu kənddə hamı ermənicə salamlaşır?

- Ermanı kəndidir, pəs ona göra...

- Burada erməni çoxdur, yoxsa müsəlman?

- Ermanı kəndində ermanı çoxdur, kirvə! hələ bizi siz kırmasaydınız biz daha çox olardıq!

- Biz sizi nə vaxt qırmışıq? Kirvə! - deyə Abdurahman mat-məəttəl qalmış vəziyyətdə, dayanıb, Aşotun üzünə baxdı.

- Biz sizi nə vaxt qırmışıq?

- Ara, 18-20-ici illərdə!.. Qayabaşı, Daşbulaq, Göybulaq, Səbətli, hamısı ermanı idi. Turklarla Zəyzidlilər birdə Göynüklülər gəlıp, qırıp tökdular.

- Aşot! sən nə danışırsan?! Mənim eşitdiyimə görə, əlinə silah alıb, bütün bu dağdibi kəndləri dağa-daşa salan siz ermənilər olmusunuz. Tatevosdan, Andranikdən fitva alıb, birinci siz başlamısınız...

- Ara biz heç vaxt başlamırıq!

- Vallah, kirvə! Babamgil danışırdılar ki, əgər türk ordusu gəlməsə ermənilər bütün bu dağdibi kəndlərin müsəlman əhalisini qıracaqmış... Sonra da, axı biz sizi qırmış olsaydıq sən burada nə gəzirdin?! Bəs sizinkilər niyə demirlər ki, türk əsgəri o vaxtlar Qənığın üstündən kəndir körpü çəkib, sizin arvad uşağı Şireyə keçiriblər. Qıymayıblar ki, qadın-uşaq qırılsın. Amma ermənilər ələ keçəni süngüdən keçiriblər. Baxmayıblar ki, bu qadındır ya uşaq!

- Mən onları bilmiram, kirva! Bir onu biliram ki, bu hendavarın hamısı bizim də-də-baba torpaqlarımız olub. Biz çox olmuşuq. Sizinkilər bizi qırıp, biz az qalmışıq...



- Ay kirvə! Sən lap köhnə qramafon kimi- elə dediyini deyirsən. Özü də bir əsasın, bir sübutun olmadığı halda!..

- Onlar nə olan şeydi, kirvə?!

- Onlar odur ki, bura sənin dədə- baba yurdundursa niyə adına Göybulaq deyirlər? Hiyə bu yer ermənicə adlanmır? Əsassız danışmağa qalsa, elə şeylər deyərəm ki, mat qalarsan.

-Nə deyarsan, a kirvə?

- Deyərəm ki, erməni adını da sizə ruslar verib!

- o neca olur, kirvə?

- Elə olur ki, özünüz özünüzə "hay" deyirsiniz, ruslar isə - armenin". Biz də ruslardan götürüb sizə "erməni" deyirik.

- Haa!.. Nə olsun ki?!

- O olur ki, buralara müsəlmanlıq gələrkən müsəlmanlığı qəbul etməyən tayfalar olub ki, o türk tayfaları "ərmənilər" adlanıb. Onlar xaçpərəstdirlər deyə onların adını ruslar götürüb yapışdırıblar sizə.

- Kirvə! mən belə şeyləri bilmiram. Yaxşı, bəs biz erməni deyiliksə nəyik?

- Haysınız!

- Kirvə! Belə sözləri Rozanın yanında danışma! Yoxsa o, bizi bu axşam ac qoyar. Ara! O işlların biza nə daxlı? Siyasat siyasat adamları uçundur! Sənnən mən biz adi adamlarıq...

Abdurahman fikirləşdi ki, "Aşot da özünə görə az aşın duzu deyil. Bir balaca bərkə düşən kimi sürüşüb aradan çıxır".

Nəhayət Aşot mətləbi yasalayıb-pasaladıqdan sonra dedi:

- Daha bəsdir, gəl qayıdaq evə! Mən göruramısənə çox içmak yaramır. Çox içanda deyma-duşar olursan!

Yenə həmin şapalaq, yenə həmin şaqqanaq... , artıq Abdurahmanın keyfi pozulmuşdu. Birdə qayıdıb Aşotun qapısını açmaq istəmədi. Amma neyləmək olardı?!. Bir tərəfdən axşam idi, digər tərəfdən də qayıdıb getməyə nə ad versin - onu bilmirdi...

Abdurahman Aşotun dalınca, kəndaşağı yollandı. Yol boyu Aşot özü zarafat edir, özü də gülürdü. Abdurahman isə yalnız qulaq asır, lazım gəldikdə "hə", və ya "yox" deyirdi. Onlar həyətə çatıb, gördülər ki, artıq orada iki kişi oturub çay içirlər. Onlar Abdurahmanla görüşüb, onu süfrənin başında əyləşdirdilər. Dedilər ki, "biz qonşular sən qonağın başına yığılmışıq". Bu iş Abdurahmanı bir az sakitləşdirdi. Fikirləşdi ki, daha onu Rozanın qərəzli eyhamları, Aşotun sün`i "hörmətləri" təngə gətirməyəcək.

Nəyatdə başqa qadınlar da göründü.Deyəsən, qonşular öz xanımları ilə gəlmişdilər. Roza onları gətirib Abdurahmanla tanış etdi:

-Abdurahman, bu xanım mənim müəllim yoldaşım, bu isə məktəbimizin direktoru Murad müəllimin arvadıdır. Tanış ol! Bu xanım da mənim rəfiqəm Nellidir. - Sonra o, qadınlara müraciətlə, yavaşdan: - Bu da mənim köhnə nişanlımdır! - dedi və, çox güman ki, əvvəldən söhbətləri olduğuna görə, qadınların üçü də güldü. Abdurahman xanımların ikisi ilə də əl verib görüşdü. - Mən də tanışlığa görə çox məmnunam! - dedi. Və sonra bu "məmnun" sözünün haradan yadına düşdüyünü fikirləşdi.

Söhbət əsnasında mə`lum oldu ki, Murad müəllim və Mişa dayı Aşotun yaxın qonşularıdır, Susan xanım Muradın, Nelli isə Mişanın arvadlarıdır. Belə, qısa tanışlıqdan sonra hamı "qonaqlıq" stolunun başına keçdi və məclis getdikcə qızışmağa başladı.

Məclisin əvvəlində söhbət və sağlıqlar Azərbaycan türkcəsi ilə, bir az keçdikdən sonra erməni, rus, türkcənin qarışığı və ən nəhayət erməni dilində gedirdi. Bayaqki danışıqlardan xoflanan Abdurahman ya az içir, ya da ki, hər sağlıqdan sonra qədəhi dodağına toxundurub, bir damcı da içmədən yerə qoyurdu. Roza da bir tərəfdən onu dilxor edirdi. Başqa iki xanım kimi o da yüngül və qəşəng geyinmişdi. Naz-qəmzəsini bir az da artırmış, elə bil ki, öz gözəlliyi ilə Abdurrahmandan qisas almağa çalışırdı. Yazıq Abdurahman - onu heç adam yerınə qoymayan, artıq məclisin sonlarına yaxın tamamilə ermənicə danışıb, bir-birinin sağlıqlarına arağı su kimi içən, erməni kişisi və hər kəlməsinin axırında Abdurahmanın "ağrıyan yerinə" vurmağa çalışan Roza və onun rəfiqələrinin arasında qalmışdı. Məsələn, Roza deyirdi ki, "yesənə Abdurahman! axsax Sariyadan pis hazırlamamışam ha...", ya da "musurman nə bilir ağzının dadını"... Hər dəfə də xanımlar Abdurahmanın "bostanına atılan daşlardan" həzz alır və qaqqıldaşıb gülüşürdülər. Hələ iş o yerə qaldı ki, Roza Göybulaqda Sona adında bir dul qadının olduğunu dedi və Abdurahmanın onunla evlənib burada qalmasını da təklif etdi.

Bu təklifə qadınların üçünün də ürəkdən gülməsi Abdurahmanı o qənaətə gətirdi ki, Sona kimdirsə ya eybəcərliyi iləmi, ya da qocalığı və ya hansı eyibəsə malik olması bunları güldürür.

"Sona" söhbətindən sonra Abdurahmanın bu gün Ikinci dəfə keyfi möhkəm pozuldu. O, öz-özünü danlamağa başladı ki, axı niyə gəlib bu itin -qurdun içinə düşüb?!, "bunlar nə cür millətdir?, ya dostluğu bilinmir ya da düşmənliyi",. Nəysə, axır ki, Abdurahman üçün üzücü olan bu məclis sona yetdi. Qonşular salamatlaşıb getdilər. Aşot əməlli-başlı keflənmişdi. O, ermənicə Abdurahmana nə isə deyir, onun dediyinə Roza e`tiraz edir, sonra da Aşot Abdurahmanı qucaqlayıb, üzünü-gözünü öpürdü...

Abdurahman Rozanın xahişi ilə Aşotu balkona çıxardı. Aşotısə təkid ilə tə`ləb edirdi ki, "hələ kirvəsi ilə yeyib-içəcək". Roza balkondakı soyuducudan iki litirlik, sifon çıxardı və ondan üç stəkana tünd moruğu rəngdə maye süzüb, birini Aşota, birini Abdurahmana, ibirini də özünə götürüb:

-İçin! sərindi... - dedi.

Aşot stəkanı başına çəkib, oxaylandı və Rozadan xahiş etdi ki, birini də versin. Roza sifonu gətirib onun stəkanını doldurdu. Aşot bu stəkanı da başına çəkdi, sonra bir müddət stəkanı havada saxladı və əlində stəkan kətildən qalxıb ləngər vura-vura çarpayıya yaxınlaşıb, üzüquylu yatağa yıxıldı. Roza Abdurahmanın üzünə baxıb gülümsədi və dedi:

- Abdurahman sən iyə içmirsən? İçsənə!.. Sən yatmaq istəmirsən?!

- Bu nədi ki? - deyə Abdurahman stəkanı burnuna yaxınlaşdırdı, qoxusundan bildi ki, alıbalı likorudur.- likordur?

- Haa.

- Arağın üstündən likor?..

- Qorxma, sənə heç nə eləməz! Sən araq içmədin ki, Çək başına!

Abdurahman ürəyində nə "olar,olar" dedi və stəkandakı likoru son damcısına kimi içdi. Onun bu hərəkəti Rozanın çox xoşuna gəldl və

- Axır ki, tərsliyindən döndün! - dedi və əlindəki stəkanı o, da başına çəkib, boş stəkanı soyuducunun üstünə qoydu. Sonra düyməni basıb balkonun işığını söndürdü, gəlib Abdurahmanın dodaqlarından öpdü.

- Di dur, Aşotu yerinə sakit edək!-dedi.

Abdurahman əvvəlcə Rozaya, sonra üzüouylu çarpayıya sərilib xoruldayan Aşota baxdı. Daha deyiləcək bir söz qalmamışdı... O, itaətlə ayağa qalxdı və Roza ilə köməkləşib, Aşotu soyundurub yatağına uzandırdılar.

-Sən də soyun, çaroayının o birin də yat! - deyə Roza ikinci çarpayını da Abdurahmana göstərdi, özü isə otağa keçdi.

Abdurahman soyunub, çarpayısına uzandı və ürəyinin döyüntüsünün nə vaxt dayanacağını gözlədi. Həhayət ürək döyüntüləri də keçdi. Hər şeyi unudub yuxulamağa çalışdı. Elə bil yerinə qor tökülmüşdü. Çalışırdı ki, bir tərəfi üstə, tərpənmədən bir az yatsın, bəlkə yuxulaya bilə... Mümkün olmurdu... Bir tərəfdən də Aşotun xorultusu Abdurahmanın lap zəhləsini tökmuşdü.Durub Aşotun yatağına yaxınlaşdı. Onun çiynindən tutub, silkələdi:

- Aşot! Aşot! Ə, zalım oğlu, qoymazsan bir çimir alaq?!. - deyə Aşotu oyatmağa çalışsa da heç bir nəticə ala bilmədi. Elə bil çağırdıqca ona daha çox qaz verirsən! Xorultu bira-iki artırdı...

- Zahmat çekma, oyanmaz!..

Abdurahman çevriləndə Rozanı yanında gördü. Bilmədi nə desin. Roza:

- Ara niya gəlmirsan? Sən nə tahar kişisən?!. Gal buraya, gal-xal - deyə Roza Abdurahmanın qolundan tutub, otağa tərəf çəkdi. Abdurahman hipnoza düşmüş kimi, *itaətlə onun arxasınca getdi. Roza onu öz yatağına uzandırdı:*

- Sakit ol, Abdurahman! Yaxşı olacaq! - dedi və qayıdıb otağın qapısını örtdü və cəftəni keçirtdi. Sonra, əynində olan bir xalatını da soyunub kənara atan, Rozaya baxan Abdurahman öz-özünə fikirləşdi ki,"gör nə fəsaddır bu axçi, axır ki, istədiyinə nail oldu".

Səhər hava işıqlaşanda Roza məsləhət gördü ki, Abdurahman durub, öz yerinə getsin.

- Roza! Mən daha bu evdə qala bilmərəm! Durub, heç Aşotu gözləmədən, çıxıb gedəcəyəm.

- Abdurahman! Sən nə danışırsan?! İstəyirsən ki,qonşular arasında biabır olaq? Yoox Sən heç yerə getməyəcəksən! Mənım xatırıma!..

Abdurahmanın deyiləcək sözü qalmamışdı və durub, dinməz-söyləməz öz yatağına getdi. Aşot hələ də xoruldayırdı. Və, artıq, onun xorultusu Abdurahmanın heç vecinə də deyildi. O, yerinə girən kimi yuxuladı.

Abdurahmanı Roza oyatdı.

- Abduahman! Dur daha bəsdir yatdın!.. - deyə nəvazişlə onun üz-gözünü sığalladı və əyilib öpdü. - Dur, hamamı hazırlamışam, yuyun! Aşot da mal-qaranı naxıra aprıb. Qayıdar oturub çay-çörəyinizi yeyərsiniz!

Abdurahman nə isə demək istədi, amma Roza sol əlinin şəhadət barmağı ilə onun dodaqlarının üstündən ehmalca basıb:

- Ssss... - dedi və yenə əyilib elə barmaq basdığı yerdən öpdü, pıçıltı ilə əlavə etdi: - sən bizim kirvə qonağımızsan!

Şəki. 25.05.2000.

